38 (1344) 26 sentyabr - 2 oktyabr 2024-cü il

# İQTİSADİYYAT

www.iqtisadiyyat.com

Həftəlik iqtisadi, ictimai-siyasi, müstəqil qəzet | Qiymətі razılaşma yolu ilə | Qəzet 1999-cu ildən çıxır

# "MİLLİ MƏCLİS VƏ ONUN DEPUTATLARI ÖZ İŞİ İLƏ ÖLKƏMİZİN HƏRTƏRƏFLİ İNKİŞAFINA ÖZ TÖHFƏSİNİ BUNDAN SONRA DA VERƏCƏK"

***Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclasında çıxışı zamanı deyib.***



O, Yeddinci çağırış Milli Məclisin öz işinə başlaması münasibətlə bütün deputatları ürəkdən təbrik edib, Milli Məclisə uğurlar arzulayıb.

**Prezident İlham Əliyev deyib:** Builki prezident və parlament seçkiləri müstəqil ölkəmizin tarixində ilk dəfə idi ki, ölkəmizin bütün ərazisində keçirilmişdir. Bu, tarixi hadisədir. İkinci Qarabağ müharibəsi və suverenliyimizin tam bərpa edilməsi dünya miqyasında tarixi hadisədir. Azərbaycan xalqı güclü iradə, birlik göstərərək 30 il davam edən işğala son qoydu. Azərbaycan dövləti öz gücünü göstərdi, xalqımız isə bütün dünyaya öz əyilməz ruhunu göstərmişdir. Ona görə əminəm ki, 2024-cü il bu baxımdan tarixdə qalan il olacaq. Çünki prezident və parlament seçkiləri bütün ərazilərdə keçirilərək bir daha Azərbaycan xalqı öz iradəsini ortaya qoydu.

İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı nəticəsində suverenliyimizin tam bərpa edilməsi ölkə qarşısında yeni imkanlar, yeni üfüqlər açır. 30 ilin işğalı arxada qaldı. İndi ölkəmiz genişmiqyaslı quruculuq, inkişaf işinə qədəm qoymuşdur və nəticələr də göz qabağındadır. Son 3-4 il ərzində ölkəmizin beynəlxalq mövqeləri daha da möhkəmləndi. İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələrini biz bütün dünyaya qəbul etdirə bildik. Halbuki bunu qəbul etmək istəməyən ölkələr və dairələr var idi, bu gün də var. Biz hamımız bunu yaxşı görürük ki, bizə qarşı əsassız ittihamlar, ikili standartlar əsasında qurulmuş ittihamlar davam edir. Ancaq bu, nə bizim iradəmizə, nə xalqımızın iradəsinə heç cür təsir edə bilməz.

***Dövlət suverenliyinin bərpa edilməsindən cəmi bir il keçir.***

Üç gün bundan əvvəl biz artıq bu günü bayram günü kimi qeyd etmişik. Bununla bərabər, demək istərdim ki, arxayınlaşmaq üçün heç bir əsas yoxdur. Biz bu şanlı tarixi qəlbimizdə əbədi yaşadacağıq. Azərbaycan xalqı, bütün gələcək nəsillər bu şanlı Qələbə ilə haqlı olaraq fəxr edəcəklər. Ancaq ölkə qarşısında duran vəzifələr icra edilməlidir ki, biz daim inkişafda olaq, öz gücümüzü artıraq və Azərbaycan xalqının bundan sonra da təhlükəsiz həyatını təmin edək.

Ona görə bu gün bu fürsətdən istifadə edərək ölkə qarşısında duran bəzi vəzifələr haqqında öz fikirlərimi sizinlə və Azərbaycan xalqı ilə bölüşmək istərdim.

Birinci nömrəli vəzifə hərbi gücümüzün artırılmasıdır. Baxmayaraq ki, İkinci Qarabağ müharibəsi və antiterror əməliyyatı arxada qaldı, həm dünyada gedən proseslər, yeni münaqişə, müharibə ocaqlarının yaradılması və ətrafımızda gərginliyin artması, eyni zamanda, Ermənistanda revanşizm meyilləri bizi bu sahəyə daim diqqət göstərməyə vadar edir. Hərbi gücümüz olmasa, biz heç bir müstəvidə - nə iqtisadi, nə siyasi müstəvidə uğur qazana bilmərik. Hesab edirəm ki, müstəqil Azərbaycanın tarixi, o cümlədən 30 illik işğal bunu əyani şəkildə göstərir. Bizim hərbi imkanımız, gücümüz olmasaydı, heç vaxt torpaqlarımızı işğalçılardan azad edə bilməzdik. İndi dünyada nəinki siyasətlə məşğul olanlar, hesab edirəm ki, bütün insanlar görürlər ki, beynəlxalq hüquq anlayışı tamamilə sarsılıb. İkinci Dünya müharibəsindən sonra formalaşmış təhlükəsizlik arxitekturası artıq mövcud deyil, "Kim güclüdür, o da haqlıdır" prinsipi üstünlük təşkil edir və artıq bəzi böyük dövlətlər bunu heç gizlətmirlər. Bizim isə siyasətimiz, əslində, uzun illər ərzində bu istiqamətdə aparılırdı. İşğal dövründə, ilk növbədə, hərbi gücümüzün artırılması daim bizim əsas vəzifəmiz idi və hər il Milli Məclisdə dövlət büdcəmiz təsdiq olunanda artıq hər kəs görürdü ki, birinci xərclər hərbi xərclərdir. Bu gün də belə olmalıdır.

Bəli, ölkə qarşısında böyük vəzifələr durur, ilk növbədə, Qarabağı və Şərqi Zəngəzuru bərpa etmək vəzifəsi. Ancaq əgər biz hərbi sahəyə diqqətimizi azaltsaq və oraya ayrılan vəsaiti lazımi səviyyədə təmin etməsək, gələcəkdə bizi problemlər gözləyə bilər.

Ermənistanda revanşist qüvvələr baş qaldırır. Bu, təkcə marginal siyasi ünsürlər deyil, eyni zamanda, bugünkü Ermənistan hakimiyyəti bu fikirlərlə, bu xülyalarla yaşayır. Onlar İkinci Qarabağ müharibəsinin və antiterror əməliyyatının nəticələri ilə barışmaq istəmirlər. Üzdə bunu desələr də, onların işləri, siyasətləri, addımları tam əks mənzərə yaradır. Bu günə qədər heç bir funksional mahiyyət daşımayan Minsk qrupunun formal olaraq saxlanması da məhz buna dəlalət edir. Hər kəs yaxşı bilir Minsk qrupu nə üçün yaradılmışdır - Qarabağ münaqişəsinin həlli üçün. Qarabağ münaqişəsi həll olunub, tam və birdəfəlik. Ermənistanın rəsmi dairələri də öz bəyanatları ilə sanki bunu etiraf edirlər. Amma bununla paralel olaraq, bizim bütün təkidlərimizə rəğmən, Minsk qrupunu yenə də formal olaraq saxlamaq ancaq bir məqsədi güdə bilər ki, yenidən bizə qarşı ərazi iddiaları baş qaldırsın. Ermənistanın arxasında dayanan ölkələr, onların fəaliyyəti, onların qəbul etdikləri qərarlar, qətnamələr, açıqlamalar - bütün bunlar onu göstərir ki, bizə qarşı bu çirkin oyun hələ bitməyib. Bizim Qələbəmizi həzm edə bilməyən xarici dairələr bizə qarşı yeni planlar hazırlayır. Bu barədə geniş danışmağa ehtiyac yoxdur. Ancaq əldə edilmiş məlumatlar bunu göstərir. Media kampaniyasının, qarayaxma, iftira, böhtan kampaniyalarının da məqsədi məhz budur - bu mövzunu daim gündəlikdə saxlamaq və ümidlə yaşamaq ki, nə vaxtsa Azərbaycan büdrəsə, zəifləsə, yenidən bizə qarşı bu çirkin hərəkətlər başlasın. Yəni, biz bunu bilməliyik. Azərbaycan iqtidarı bunu bilir, ictimaiyyət də bunu bilməlidir. Ona görə bizim arxayınlaşmağa heç cür haqqımız yoxdur.

***Ona görə bir daha deyirəm: vəzifə nömrə bir - hərbi gücümüzün artırılması və biz bunu edirik.***

İkinci Qarabağ müharibəsindən keçən dövr ərzində öz hərbi gücümüzü böyük dərəcədə artırmışıq, yeni silahlı birləşmələr yaradıldı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı. Yeni Xüsusi Təyinatlı Qüvvələr, Komando qüvvələri yaradıldı və onların da say tərkibi ildən-ilə artır və artacaq. Digər xüsusi təyinatlı silahlı birləşmələr yaradılmışdır və gecə-gündüz təlim işləri aparılır. Ordumuzun döyüş qabiliyyəti artır, texnika ilə təchizat lazımi səviyyədə təmin edilir və təmin ediləcəkdir. Ermənistan və onun arxasında duran istənilən ölkə bilməlidir ki, bizimlə şantaj və ultimatum dili ilə danışmaq mümkün olmayacaq. İstənilən cavabı verməyə hazırıq, buna qadirik və hər zaman buna hazır olmalıyıq.

Bununla paralel olaraq, biz yerli hərbi sənaye kompleksimizi də daha sürətlə inkişaf etdirməliyik. Bu il bu məqsədlə böyük vəsait ayrılmışdır və gələn il də ayrılacaq. Bizim bütün hərbi zavodlarımızda genişmiqyaslı modernləşmə işləri aparılır. Deməli, yeni avadanlıq, texnika, silah-sursat istehsal olunur. Bir neçə xarici tərəfdaşla yeni istehsalat sahələrinin yaradılması artıq praktik müstəviyə keçibdir. Yəqin ki, növbəti bir-iki il ərzində bizim hərbi sənaye kompleksimiz daha böyük olacaqdır, həm çeşidlərin sayına, həm də ki, istehsal olunacaq məhsulların keyfiyyətinə görə. Burada bir neçə məqsəd güdülür. İlk növbədə, yerli hərbi sənaye kompleksinin yaradılması hər bir ölkənin ümumi gücünü və inkişafını göstərir. İkincisi, biz xarici mənbələrdən daha az asılı olmalıyıq. Təbii ki, bu asılılığı tam aradan qaldırmaq mümkün olmayacaq. Bunu da biz bilməliyik. Amma maksimum dərəcədə özümüzü yerli istehsalla təmin etməliyik. Bu sahədə, xüsusilə müasir dövrdə tətbiq olunan texnoloji yeniliklər bizim ümumi intellektual potensialımızı gücləndirəcək. Çünki bu sahədə çalışan kadrlar, öz işlərini tamamilə yeni, texnoloji və metodoloji əsaslar üzərində qururlar və quracaqlar. Minlərlə yeni iş yeri yaradılacaq. Artıq bütün bunlar bizim təkcə planlarımız deyil, həyata keçirilən layihələrdir. Təbii olaraq, bu layihələr haqqında geniş danışmağa ehtiyac yoxdur. Sadəcə olaraq bildirməliyəm ki, bu da bizim növbəti illər üçün əsas vəzifələrimizdən biri olacaqdır.

Digər amil ondan ibarətdir ki, bu gün dünya silah bazarında aparıcı rol oynayan ölkələrin başı öz işlərinə qarışıb. Onlar daha çox öz daxili tələbatını ödəmək üçün çalışırlar. Ona görə dünya silah bazarında təbii olaraq qıtlıq yaranıbdır. Biz bunu da nəzərə almalıyıq. Eyni zamanda, bu sahə bizə imkan verəcək ki, hərbi-texniki məhsullarımızın ixrac coğrafiyasını genişləndirək. Onsuz da bu gün Azərbaycan onlarla ölkəyə hərbi sənaye kompleksinin məhsullarını ixrac edir və ildən-ilə bu coğrafiya genişlənir. Bu, bizim bir çox ölkələrlə apardığımız danışıqların, o cümlədən iqtisadi və sərmayə qoyuluşu sahəsində aparılan danışıqların tərkib hissəsidir - biz yaxın gələcəkdə dünya silah bazarında önəmli oyunçuya çevrilək və bu imkanlar var.

Siz onu da yaxşı bilirsiniz ki, artıq bu yaxınlarda biz bu sahəni özəl sektor üçün də açıq elan etmişik və şadam ki, mənim çağırışıma özəl sektor da müsbət reaksiya vermişdir. Artıq bir neçə yerli Azərbaycan şirkəti, özəl şirkət hərbi sənaye kompleksinin inkişafında iştirak edir, təbii olaraq, müvafiq dövlət qurumlarından lisenziyalar almaq şərti ilə. Beləliklə, bu, bizə imkan verəcək ki, bir neçə ildən sonra bu sahədə istehsal olunan məhsul milyardla dollarla ölçülsün.

***Növbəti önəmli vəzifə sərhədlərimizin qorunması ilə bağlıdır.***

Mən bu haqda artıq bir neçə dəfə öz fikirlərimi ictimaiyyətə çatdırmışam. Hazırda həm Ermənistanla şərti sərhədimizdə mühəndis işləri aparılır, eyni zamanda, digər qonşularla sərhədimiz müasir infrastrukturla təchiz edilməlidir.

**İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla vaxtilə işğal altında olan şərti sərhədimizin uzunluğu 500 kilometrdən çoxdur. Özü də bu şərti sərhədin relyefi, coğrafiyası çox ağır, həm də ki, iqlim nöqteyi-nəzərdən çox çətin yerlərdə yerləşir və orada xidmət aparmaq o qədər də asan deyil. Bizim bəzi xidmət yerlərimizin hündürlüyü 3 min metrdən çoxdur.** Amma buna baxmayaraq, bizim sərhədboyu yerləşən hərbi mövqelərimiz möhkəmlənir. Biz şərti sərhəddə möhkəmlənirik, çünki hər an Ermənistandan istənilən təxribat gözləmək olar və Ermənistan tərəfi həm kütləvi surətdə silahlanır, eyni zamanda, xarici ölkələrlə, özü də böyük dövlətlərlə hərbi təlimlər keçirir. Ermənistana Qərb ölkələrindən silah, sursat göndərilir. Bəzi hallarda açıq - necə ki, Fransa-Ermənistan hərbi əməkdaşlığı açıq-aşkar aparılır - bəzi hallarda isə məxfi formada. Ancaq biz indi hər şeyi bilməliyik və bilirik, kimlər nəyi Ermənistana nə vaxt ötürür, hansı hərbi yük təyyarələri Ermənistan hava limanlarına enir və o yük təyyarələrində hansı hərbi məhsullar Ermənistana daşınır. Yəni, Ermənistanı bizə qarşı yönəltmək üçün bəzi Qərb dövlətlərinin planları göz qabağındadır. Təbii ki, onları erməni xalqı maraqlandırmır. Erməni xalqı, sadəcə, onlar üçün bir alətdir, bir vasitədir ki, Azərbaycanı daim təzyiq altında saxlasın, Ermənistan ərazisindən istifadə edərək Azərbaycan üçün və Ermənistanın digər qonşuları üçün təhdid mənbələri yaratsın və beləliklə, öz maraqlarını təmin etsin. Yəni, bu metodologiya kifayət qədər bəsitdir. Ancaq onu da bilməlidirlər ki, biz buna imkan verməyəcəyik. Mən artıq demişəm ki, əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin. Sərhədlərin mühafizəsi isə həm vizual, həm infrastruktur, həm texnoloji vasitələrlə təşkil edilir və edilməlidir. Ancaq biz hamımız bilməliyik ki, bu, çox böyük, genişmiqyaslı bir işdir.

Digər qonşularımızla da sərhədlərimizin möhkəmləndirilməsi vacib şərtlərdən biridir və əminəm ki, Azərbaycan vətəndaşları da bu məsələyə anlayışla yanaşırlar. Bizim quru sərhədlərimiz hələ də bağlıdır, yəni, vətəndaşların gəliş-gedişləri üçün. Başa düşürük ki, bu, müəyyən çətinliklər yaradır. Ancaq bugünkü geosiyasi vəziyyət də hamının gözü qarşısındadır, daxili təhlükəsizliyi təmin etmək üçün bu, yeganə düzgün addımdır. Daxili təhlükəsizlik ilə bağlı bütün lazımi tədbirlər görülür. Təhdidlər də var - real və potensial. O təhdidlərin aradan qaldırılması üçün müvafiq qurumlar fəal işləyirlər. İctimaiyyət də lazım olan həcmdə bu məsələ ilə tanış olur, məlumatlar verilir. Ancaq bu sahə çox həssas olduğu üçün hesab edirəm Azərbaycan vətəndaşları başa düşürlər ki, bu barədə çox şey danışmaq yersiz və zərərli olar. Amma mən tam əminliklə deyə bilərəm ki, son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün - sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər olur və bu hərəkətlərin qarşısı alınır. Ona görə sərhədlərimizin qorunması bizi xarici risklərdən qoruyacaq, daxili risklər Azərbaycanda yoxdur. Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu, təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir. Bizim təhlükəsizliklə bağlı bütün digər tədbirlər lazımi səviyyədə təmin edilir. Azərbaycan güclü dövlətdir və ildən-ilə bizim gücümüz artmaqdadır.

***Digər vacib vəzifələr ideoloji təhlükəsizliklə bağlıdır və burada da biz daim diqqətli olmalıyıq.***

Çünki bizə qarşı ideoloji təxribatlar davam edir. Düzdür, onların bu günə qədər heç bir nəticəsi olmayıb, çünki bunların qarşısında xalqımızın güclü iradəsi və milli ruhumuz dayanır. İstənilən ideoloji təxribatın burada kök salması qeyri-mümkündür. Ancaq bununla bərabər, bu, bizi sakitləşdirməməlidir. Ona görə biz buna daim hazır olmalıyıq və bizə qarşı aparılan çirkin oyunları ifşa etməliyik, necə ki, edirik, həm rəsmi surətdə, həm ictimai məkanda, həm də media məkanında. Hesab edirəm ki, Azərbaycan xalqı bu gün hər şeyi yaxşı görür, hər şeyi yaxşı bilir - bizim dostumuz kimdir, düşmənimiz kimdir. Əsas meyar ölkələrin bizim suverenliyimizin bərpasına olan münasibətidir, daha başqa uzağa getmək lazım deyil. Bizi kim dəstəkləyib, suverenliyimizin bərpa edilməsində kim təbrik edib? Bu, bizim dostlarımızdır. Buna qarşı kim çıxıb və kim çıxır? Bunlar bizə dost ola bilməzlər. İşğal dövründə bu, o qədər də aydın deyildi. Yəni, bizim üçün aydın olsa da, geniş ictimaiyyət üçün aydın deyildi. Çünki vaxtilə xarici təbliğat Azərbaycanda o qədər kök salmışdı, özü də bir mənbədən yox, bir neçə mənbədən. Bir-biri ilə rəqabət aparan xarici qüvvələr və ölkələr çalışırdılar ki, Azərbaycanda ictimai fikirdə söz sahibi olsunlar. İstəyirdilər ki, onların əlaltıları vasitəsilə bizim media məkanında istənilən təxribatı ortaya ataraq, vəziyyəti öz xeyrinə dəyişdirsinlər. Yəni, belə cəhdlər çox olub, amma güclü iradə və xalqımızın birliyi buna imkan verməyib. Bu gün də bu davam edir. Ona görə yenə də deyirəm, çox sadə meyarlar var. Kim bizimlə Qarabağın Azərbaycana qaytarılmasına sevinirsə, o, bizim dostumuzdur, qardaşımızdır. Kim bundan məyus olub və kim bu gün yenidən separatçılara ürək-dirək vermək istəyir, kim onları xarici ölkələrə dəvət edir, kim onlara vizalar verir, kim bizə qarşı müxtəlif alətlər vasitəsilə qarayaxma kampaniyası aparır, o, necə bizim dostumuz ola bilər? Ona görə hər şeyin, necə deyərlər, açıq-aydın görünməsi bu gün daha aydındır. Çünki yenə də deyirəm, işğal dövründə bizə qarşı bu qədər açıq, təxribat xarakterli

addımlar olmamışdı. Çünki o işğal bizə qarşı olan qüvvələri tam qane edirdi - Azərbaycan dövləti daim təzyiq altında olsun, daim hansısa vasitəçilərə möhtac olsun, daim xalqımız mənəvi əzab çəksin, qaçqınlıq əzabı. Torpaqlarını itirmiş xalqın duyğularını başa düşmək üçün böyük ağıla malik olmaq lazım deyil. Yəni, biz bu bəladan canımızı qurtardıq və bizə qarşı olan anti-Azərbaycan qüvvələrin maskaları dərhal yırtıldı və bu gün də biz bunu görürük. Mən hesab edirəm ki, ad çəkməyə ehtiyac yoxdur, hər kəs hər şeyi görür. Ona görə ideoloji təhlükəsizlik məsələləri də daim diqqət mərkəzində olmalıdır, həm dövlət qurumlarının, həm qanunvericilik orqanının, həm də ictimai fəalların. Biz bu məsələ ilə əlaqədar əlbəttə ki, öz addımlarımızı atırıq və atacağıq.

Bir məsələyə də toxunmaq istərdim. Mən üç gün bundan əvvəl Xankəndidə Qarabağ Universitetinin açılışında bunu demişəm, bir də demək istəyirəm. Məsələnin vacibliyi bunu diktə edir ki, gənc nəslin milli ruhda böyüməsi sadəcə olaraq sözlər deyil. Bu, Azərbaycanın gələcək inkişafının əsas təminatçısıdır, çünki ölkələri insanlar idarə edir. İnsanların fikirləri, düşüncələri, cəsarəti, yaxud da ki, tam fərqli mənfi xüsusiyyətləri və ölkələrin düşdükləri vəziyyət də böyük dərəcədə bundan asılıdır. Ona görə elə gənc nəsil yetişdirilməlidir ki, həm bilikli, savadlı olmalıdır, həm də Vətənə bağlı olmalıdır. Xarici təsirə boyun əyməməlidir, qürurlu olmalıdır. Zatən qürurlu olmaq üçün bizim şanlı müharibələrimizdən sonra, İkinci Qarabağ müharibəsindən və antiterror əməliyyatından sonra əgər biz qürurlu olmasaq, onda hansı xalq olmalıdır?! Bu parlaq Qələbəni cəmi 44 gün ərzində, şəhidlər verərək, - Allah bütün şəhidlərimizə rəhmət eləsin, - kim qazana bilib?! Bir neçə saat böyük xarici təzyiq altında davam edən antiterror əməliyyatı, - mən heç başqa amilləri demirəm, - separatçılığın kökü kəsildi Azərbaycanda - kim edə bilərdi?! Yəni, öz ölkəmizlə, xalqımızla fəxr etmək üçün ən çox haqlı olan xalq Azərbaycan xalqıdır.

**Yenə də deyirəm, ona görə biz - bütün cəmiyyət daim diqqətli olmalıyıq. Mən Xankəndidə də bunu dedim: Tərbiyənin əsas mənbəyi ailə və məktəbdir. Bu, əsasdır. Təbii ki, cəmiyyət, cəmiyyətdə hökm sürən ümumi ab-hava, necə deyərlər, iqlim - bütün bunlar gənc nəslin şüuruna, gələcəyinə ciddi təsir göstərir.** Ona görə bu məsələ daim diqqət mərkəzində olmalıdır. Əminəm ki, belə də olacaq. O cümlədən, bizim deputatlar da, təbii olaraq öz seçiciləri ilə görüşlər əsnasında bu məsələni daim diqqətdə saxlasınlar.

***Qarabağın və Şərqi Zəngəzurun bərpası təbii olaraq bizim hər birimizin önəmli vəzifəsidir.***

Əgər mən İkinci Qarabağ müharibəsindən sonra görülmüş işləri sadalamağa başlasam, onda gərək bir neçə saat sizin qarşınızda çıxış edim. Sadəcə olaraq, bir neçə rəqəmi sizin və ictimaiyyətin diqqətinə çatdırmaq istərdim. Müharibədən sonra bu ilin sonuna qədər xərclənməyə nəzərdə tutulan vəsait 19 milyard manatdır. Vəsaitin mütləq əksəriyyəti infrastruktur layihələrinə xərclənib. Eyni zamanda, keçmiş köçkünlərin qaytarılması üçün də işlər görülür və səkkiz mindən çox keçmiş köçkün artıq Qarabağa və Şərqi Zəngəzura yerləşib və hər ay, hər il onların sayı artacaqdır.

İnfrastruktur layihələri çox geniş miqyas alıb, 3 min kilometr avtomobil yolu inşa edilib. Ümumi layihələrin içində 45 tunel nəzərdə tutulur və bu tunellərin uzunluğu 70 kilometrdir, - yəni, o dağlarda tunel açmaq, yol salmaq asan məsələ deyil, - 450 körpünün inşası nəzərdə tutulur. Dəmir yolları, iki beynəlxalq hava limanı istifadəyə verilmişdir. Enerji potensialı gücləndirilir və üç il ərzində 270 meqavat gücündə su elektrik stansiyaları istismara verilmişdir və bu proses davam etdirilir. Məktəblər, xəstəxanalar, sosial obyektlər, kəndlər salınır. Yəni, bir sözlə, Qarabağın və Şərqi Zəngəzurun dirçəldilməsi üçün genişmiqyaslı işlər aparılır. Bilmirəm, tarixdə buna oxşar bərpa işləri hansısa ölkədə aparılmışdır, ya yox. Ancaq bu fakt bir də onu göstərir ki, bu, bizim üçün həmişə ən vacib məsələ olub, - həm işğal dövründə məcburi köçkünlər üçün yeni qəsəbələr salınırdı və xüsusilə indiki şəraitdə.

Bizim mədəni, tarixi irsimizin qorunması üçün praktiki işlər görülür, tarixi abidələr bərpa edilir. Ermənilər tərəfindən dağılmış yeddi məscid yenidən qurulmuşdur. Səkkiz məscidin inşası davam edir. Zəfər muzeyləri, işğal muzeyləri, zəfər parkları, - yəni bu coğrafiyada belə genişmiqyaslı işləri aparmaq, bir daha deyirəm, doğrudan da xalqımızın böyük imkanlarını göstərir və burada söhbət təkcə maliyyə vəsaitindən getmir. Bizim qurduğumuz dövlət, eyni zamanda, texniki imkanlara malikdir. Kadr hazırlığı da yerindədir. Çünki bu işləri görmək - üç min metrdən yuxarı hündürlüyü olan dağlarda qış vaxtında elektrik xətləri çəkmək, doğrudan da böyük peşəkarlıq tələb edir. Yəni, ölkəmizin potensialı budur. Biz buna hazırıq. Biz torpaqları azad edən kimi dərhal buna başlamışıq. Hətta onu da deyim ki, hələ 44 günlük İkinci Qarabağ müharibəsi bitməmişdi, biz Ağdərə rayonunda artıq yol infrastrukturunu inşa etməyə başlamışdıq. Əlbəttə ki, gələcək illərdə işlər daha sürətlə gedəcək. Yaxın vaxtlarda gələn ilin büdcəsi məclisdə müzakirə ediləcək. Əminəm ki, deputatlar hökumətin Qarabağ və Şərqi Zəngəzur üçün nəzərdə tutulan planlarını təsdiq edəcəklər və biz bunu təmin edəcəyik. Təbii ki, bütün bu işləri görmək üçün iqtisadi imkanımız olmalıdır. Çünki mən onu da bildirməliyəm ki, bütün bu işləri biz öz hesabımıza edirik. Bu günə qədər bizə bərpa işlərində köməklik edən Özbəkistan və Qazaxıstan qardaş dövlətlər olub. Füzuli şəhərində məktəb və uşaqların yaradıcılıq mərkəzi inşa edilibdir və hazırda Qırğızıstan Respublikası da Ağdam rayonunda məktəb inşası ilə məşğuldur. Vəssalam. Bundan başqa necə deyərlər, bizə bir daş da müftə verilməmişdir. Biz bütün bu işləri öz hesabımıza edirik. Dünyanın bir çox donor təşkilatları var, onlar, necə deyərlər, bu məsələyə biganədirlər. Halbuki bu böyük ərazini bu vəziyyətdə görən minlərlə xarici nümayəndə olub. Bunu görüb və heç bir praktiki iş görməmək bir daha onu göstərir ki, bizə olan münasibət nəzərə alınmalıdır. Bu, bir daha bizə göstərməlidir ki, biz ancaq öz gücümüzə arxalanmalıyıq, biz öz potensialımıza güvənməliyik.

***Bu ilin iqtisadi sahədə göstəriciləri, hesab edirəm ki, müsbətdir.***

Səkkiz ayda iqtisadiyyat dörd faizdən çox artıb, qeyri-neft sektorunda yeddi faiz olub. Biz son illər ərzində mənim tapşırığımla xarici borcumuzu ildən-ilə aşağı salırdıq və bu gün ümumi daxili məhsula nisbətdə bu, cəmi 7,5 faiz təşkil edir. Demək olar ki, biz bütün əsas kreditləri qaytarmışıq və yəni, əgər borcumuzu mütləq rəqəmlərlə götürsək, təqribən 5,3 milyard dollardır, - biz bir gündə qaytara bilərik. Daha heç bir ölkə ilə özümüzü müqayisə etmək istəmirəm. Amma bir rəqəmi deyim ki, inkişaf etmiş ölkələrin bəzilərində, o cümlədən bizə mühazirə oxumaq istəyən bəzi ölkələrdə xarici borc ümumi daxili məhsulun 100 faizini, ondan da yüksək rəqəmi təşkil edir. Yəni, bu, sadəcə olaraq kiçik bir arayışdır.

**Əlbəttə, bizim gələcək planlarımızı həll etmək, o cümlədən vətəndaşların sosial rifahını yaxşılaşdırmaq üçün iqtisadiyyat daim inkişaf etməlidir. Çünki biz 2018-ci ildən bu yana dörd sosial islahatlar paketi həyata keçirmişik. Bu sosial islahatlar paketinin məbləği 7 milyard manatdır və bu, 4 milyon insanı əhatə edir. Son beş il ərzində Azərbaycanda minimum əməkhaqqı 2,7 dəfə, minimum pensiya 2,5 dəfə artmışdır. Onu da bildirməliyəm, artıq göstəriş verildi ki, gələn ildən minimum əməkhaqqı və minimum pensiya yenə də artırılacaqdır.**

Yəni, bu sosialyönümlü siyasət bir daha bizim ümumi siyasətimizi, niyyətimizi göstərir. Əlbəttə ki, gələcəkdə bu istiqamətdə siyasəti aparmaq üçün iqtisadiyyatın şaxələndirilməsi, qeyri-neft sektorunun inkişafı, yerli istehsalın genişləndirilməsi əsas şərtdir. Bu gün ölkəmizin bütün bölgələrində, həmçinin Qarabağda yeni istehsalat sahələri açılır. O cümlədən, böyük rəmzi məna daşıyan "İstisu" su zavodunun açılışı olmuşdur və artıq istisu yenə də bizim süfrəmizdədir. Bu, doğrudan da həm böyük rəmzi məna daşıyır, həm də ki, tarixi ədalətin bərpasıdır. Çünki vaxtilə - sovet dövründə fəaliyyət göstərən həm zavod, həm də sanatoriya ermənilər tərəfindən dağıdılmışdır.

***Ermənistanla münasibətlərin normallaşması məsələsi.***

Yenə də bildirmək istəyirəm ki, İkinci Qarabağ müharibəsində məhz Azərbaycanın təşəbbüsü ilə sülh danışıqları başlamışdır. O vaxt nə Ermənistan, nə başqa ölkələr, ümumiyyətlə, gələcək nədən ibarət olacaq, bu haqda heç öz fikirlərini formalaşdırmamışdılar. Bizim təşəbbüsümüz idi. Bir müddət sonra görəndə ki, bu, cavabsız qalır, biz artıq əsas baza prinsiplərini ortaya qoyduq, onları ictimailəşdirdik və artıq proses başlamışdır. Ancaq nəyi görürük? Görürük ki, Ermənistan bu məsələni süni şəkildə uzadır. Çünki bu günə qədər - bizim birinci layihəmiz Ermənistana göndəriləndən bu günə qədər 10 şərhlər mübadiləsi olmuşdur və hər dəfə müəyyən müddəalar razılaşdırılırdı, yəni, bu işdə tərəqqi var idi. Bunu biz necə var, elə də deməliyik. Amma bununla yanaşı, aylar keçdikcə, təbii olaraq biz gözləyirdik ki, Ermənistan öz şərhlərini bizə daha operativ və çevik verəcək. Ancaq biz bunun tam əksini gördük. Son variantın onlardan alınmasını biz 70 gün gözləməli olduq. İyunun 24-də bizim şərhlərimiz onlara göndərildi və avqustun sonunda, ya da ki, sentyabrın əvvəlində onlar bizə cavab göndərmişdilər. Bu cavab nədən ibarət idi? Bütün razılaşdırılmamış müddəalar onların variantında sülh müqaviləsindən çıxarıldı. Yəni, bu dərəcədə primitiv və qeyri-adekvat addım, sözün düzü, gözlənilən deyildi. Mətndən çıxarılmış, yəni, onların istəyi ilə çıxarılması nəzərdə tutulan müddəalar vacibdir. Onlarsız sülh müqaviləsi natamam olacaq. Ona görə bu qədər qeyri-səmimi münasibət bizi təbii olaraq düşündürür. Bayaq dediyim amillərlə yanaşı, əgər biz bütün bu amilləri necə deyərlər, bir çərçivəyə salsaq, görərik ki, həm sürətli silahlanma, revanşizm meyilləri, həm də Ermənistanın himayədarlarının bizə qarşı yenidən Qarabağ mövzusunu ortaya atması, sülh müqaviləsinin gedişatında qeyri-adekvat və qeyri-səmimi münasibət, vaxt uzatma taktikası və digər məqamlar deməyə əsas verir ki, Ermənistan, əslində, sülh istəmir, vaxt uzatmaq, bu vaxtdan istifadə edərək, xarici himayədarların dəstəyi ilə hərbi potensial qurmaq istəyir. Artıq bəzi Avropa ölkələrinin və təkcə Avropa deyil, digər Qərb ölkələrinin nümayəndələri Ermənistan ordusunda işə başlayıblar. Bizim sərhədimizdə qanunsuz olaraq dırnaqarası "Avropa sülh", ya bilmirəm "müşahidəçi" missiyası yaradılıb, halbuki bu, əldə edilmiş razılaşmanın pozulmasıdır. Mən həm Avropa İttifaqına, həm Ermənistana onu da xatırlatmaq istəyirəm ki, 2022-ci ilin Praqa görüşündə razılıq əldə edilmişdir ki, - bəli, biz də razılıq vermişdik, - Ermənistan tərəfində şərti sərhəd istiqamətində kiçik sayda müşahidəçi missiya yerləşsin, cəmi iki, ya üç aya. Yəni, bizimlə bu razılaşdırıldı. Amma ondan sonra bizsiz bunu uzatdılar, onların sayını artırdılar, oraya Kanadadan nümayəndələr daxil edildi və faktiki olaraq bu missiya NATO missiyasıdır. Ondan sonra bizə qarşı "Binokl diplomatiyası", deməli, siyasəti aparılırdı. Gecə-gündüz xarici nümayəndələr gəlirdi, binoklla bizə baxırdı. Nə göstərmək istəyirdilər bizə?! Bu, nə demonstrasiyadır, nə ucuz şoudur?! Bütün bu amillər bizi ciddi düşündürməlidir və təbii ki, düşündürür. Ona görə Ermənistanla normallaşma əgər onlara lazım deyilsə, deməli, bu olmayacaq. Biz hər halda öz mövqeyimizdən bir addım geri atmayacağıq. Kim nə istəyir desin, vasitəçilər də bizə lazım deyil. Düzdür, indi bəzi vasitəçilik təkliflərinə biz etiraz etmirik, sadəcə olaraq, siyasi nəzakət naminə. Ancaq, əslində, bizə vasitəçi lazım deyil. Biz Ermənistanla dövlət sərhədinin delimitasiyasını vasitəçilərsiz etdik. Sadəcə olaraq, onlara bildirdik ki, Qazax rayonunun dörd kəndi bizə qeyd-şərtsiz qaytarılmalıdır və bunu son dəfə mən bu ilin fevral ayında demişəm. Hesab edirəm ki, bu sözlər çox tutarlı oldu və ondan sonra heç bir vasitəçisiz, heç bir qeyd-şərtsiz Qazaxın dörd kəndi, - hansı ki, işğal altında idi, - bizə qaytarıldı. Beləliklə, biz nəinki delimitasiyanı, hətta demarkasiyanı da başlamışıq. Ona görə danışıqlarda da bizə heç bir vasitəçi lazım deyil. Ermənistan da buna bel bağlamasın. Ümumiyyətlə, heç kimə bel bağlamasın. Onlar əgər bu coğrafiyada yaşamaq istəyirlərsə və təhlükəsizlik şəraitində yaşamaq istəyirlərsə, öz qonşularına qarşı siyasətlərində ciddi düzəlişlər etməlidirlər. Bu birincisi. İkincisi, nə onlar, nə onların arxasında duranlar 30 illik işğalı heç vaxt unutmamalıdırlar. Amma bunu unutmaq istəyirlər və unutdurmaq istəyirlər. Sanki bu işğal olmayıb. İkinci Qarabağ müharibəsinin nəticələrini unutmamalıdırlar, Ermənistan ordusu darmadağın edilmişdir. Ermənistan kapitulyasiya aktını imzalamışdır. Ondan sonra mən əmr verdim və Azərbaycan Ordusunun şanlı Zəfər yürüşü dayandırıldı. Bugünkü reallıq bir daha göstərir ki, bu nə qədər düzgün addım idi, ondan sonrakı hadisələr də göz qabağındadır və nəticə etibarilə 20 Sentyabr - suverenliyimizin tam bərpa edilməsi günü unudulmamalıdır və bu tarixi həqiqət danışıqlar masasında da daim olmalıdır.

İkinci Dünya müharibəsindən sonra faşist Almaniyasına heç kim sülh müqaviləsi təklif etməmişdir. Faşist Almaniyası bir neçə yerə bölünmüşdü, kapitulyasiyaya uğrayan faşist dövlət cəzalandırıldı. Burada isə kapitulyasiyaya uğrayan faşist dövlət nəinki cəzalandırılmadı, hətta onlara bütün preferensiyalar verilir. Onlara Amerikadan indi 250 milyon dollar pul verilir. O puldan onlar öz daxili məqsədlərinə istifadə edəcəklər, qənaət olunan pula isə silah alacaqlar, bizi öldürməyə. Bu məsuliyyəti kim daşıyır və kim daşıyacaq? O pulu onlara verən. O cümlədən dırnaqarası "Avropa Sülh Fondu". Görün, bu riyakarlığın səviyyəsinə baxın. Silah üçün nəzərdə tutulan fond, ona Sülh Fondu deyirlər, Ermənistan ondan istifadə edir, Fransadan pulsuz silah alır. O vəsait də ödənilmir, başqa yerlərdən. Ona görə bu, ciddi məsələdir və bu barədə çox da danışmaq istəməzdim. Sadəcə olaraq, bizim şərtlərimiz yerində qalır. Ermənistanı silahlandıranlar bilməlidirlər ki, bütün gələcək hadisələrə birbaşa onlar cavabdehlik daşıyacaqlar və təbii olaraq, bizə qarşı rəsmi ərazi iddialarına son qoyulmalıdır. Onların konstitusiyasına dəyişiklik edilməlidir, Minsk qrupu da ləğv olunmalıdır.

**Bilirsiniz, işğal dövründə bizim təbii olaraq xarici siyasətimizin böyük hissəsi bu istiqamətə yönəlirdi. İndi isə - tarixi Zəfərimizdən sonra biz xarici siyasətimizdə daha sərbəstik və bu münasibətlə bir neçə kəlmə demək istərdim: müstəqil, prinsipial xarici siyasət bizim əsas istiqamətimizdir. Biz heç kimə qarşı heç vaxt heç bir iş görməmişdik, heç kimin işinə qarışmamışdıq. Amma bizim işimizə qarışmaq istəyənlərə də hər dəfə dərs vermişik ki, bunu etməsinlər.** Belə cəhdlər var, olacaq. Düzdür, onların heç bir əhəmiyyəti yoxdur. Ancaq bizim xarici siyasət istiqamətində bu amil təbii olaraq həmişə nəzərə alınacaq. Kim bizimlə ikitərəfli formatda, qarşılıqlı hörmət əsasında əməkdaşlıq etmək istəyirsə, biz ikiqat əməkdaşlıq edəcəyik. Amma əgər kimsə hesab edir ki, bizə gəlib nəsə diktə edəcək, yaxud da ki, bizi əsassız olaraq ittiham edəcək, ya da ki, hansısa vasitələrlə bizi qaralayacaq və sanki heç nə olmamış kimi bu ölkələrlə biz dostluq edəcəyik, bu, səhv təsəvvürdür, bu, olmayacaq! Azərbaycan çoxdan özünü ləyaqətli və qürurlu dövlət kimi təsdiqləyib. Xüsusilə, tarixi Zəfərimizdən sonra bizim beynəlxalq nüfuzumuz bir neçə dəfə artıb. Beynəlxalq mövqelərimiz möhkəmlənib, beynəlxalq ictimaiyyət bizimlədir. Çünki bəzi Qərb ölkələri hesab edirlər ki, beynəlxalq ictimaiyyət ancaq onlardır və onların əli altında olan demək istəmirəm yəni, asılı dövlətlər. Yox, beynəlxalq ictimaiyyət bütün dünya ölkələridir və bu dünya ölkələri bizə yekdilliklə səs verib. COP29-un Azərbaycanda keçirilməsi 200-ə yaxın ölkə tərəfindən yekdilliklə qəbul edilmiş qərardır və bizim beynəlxalq nüfuzumuzu, hörmətimizi göstərən vacib amildir. Bundan sonra da xarici siyasətdə geriyə heç bir addım olmayacaq. Dostlarımızın bütün qitələrdə sayı artır. Biz indi - İkinci Qarabağ müharibəsindən və suverenliyimizi bərpa edəndən sonra daha fəal xarici siyasət aparacağıq. Vaxtilə mövcud olmadığımız bölgələrlə indi çox ciddi təmaslar qurulur, həm sərmayə qoyuluşu layihələri nəzərdən keçirilir, eyni zamanda, müxtəlif sahələrdə əməkdaşlıq üçün yeni imkanlar yaranır. Təbii olaraq, ənənəvi tərəfdaşlarımızla, dostlarımızla münasibətlərimiz yerindədir və daha da inkişaf edir və edəcək.

***Təbii ki, ölkə qarşısında bir çox digər vəzifələr var. Bir daha məclis üzvlərini yeddinci çağırış parlamentin fəaliyyətə başlaması münasibətilə təbrik etmək istəyirəm. Hər birinizə uğurlar, cansağlığı arzulayıram. Sağ olun.***

# "ADEX" Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin nümayişidir



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 24-də Bakı Ekspo Mərkəzində keçirilən "ADEX-2024" 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə Sərgisi və "Securex Caspian" 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları Sərgisi ilə tanış olub.

Müdafiə naziri Zakir Həsənov və müdafiə sənayesi naziri Vüqar Mustafayev dövlətimizin başçısına sərgilər haqqında məlumat veriblər.

İki ildən bir keçirilən sərgi bu il 5 illik yubileyini qeyd etsə də, artıq 10 ildir fəaliyyət göstərir və ildən-ilə iştirakçı siyahısını və əhatə etdiyi sektorları genişləndirir. Sərgi 10 illik uğurlu fəaliyyəti ərzində dünyanın 50-dən artıq ölkəsini təmsil edən çoxsaylı şirkətləri və 200-ə yaxın rəsmi nümayəndə heyətini bir araya gətirib.

Beşinci dəfə təşkil olunan "ADEX" Azərbaycan və regionda müdafiə sənayesi və təhlükəsizlik sahəsində mühüm hadisədir. Bu genişmiqyaslı tədbir regionda ən böyük hərbi texnika ekspozisiyalarından biri olmaqla yanaşı, Azərbaycanın müdafiə sənayesi kompleksinin gücünün və qüdrətinin nümayişidir. "ADEX" sərgisi qabaqcıl texnologiyaların təqdimatı, beynəlxalq əməkdaşlığın gücləndirilməsi və ölkənin müdafiə sənayesinin inkişafı üçün səmərəli platforma rolunu oynayır.

"ADEX" dünyanın tanınmış hərbi sənaye müəssisələri və aparıcı xarici şirkətlər arasında işgüzar əlaqələrin qurulmasında da mühüm rol oynayır. Bildirilib ki, bu il yubiley sərgisində daha çox - dünyanın 40-a yaxın ölkəsindən 218-dən artıq şirkət iştirak edir. Sərgi Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Respublikası Müdafiə Nazirliyinin dəstəyi ilə keçirilir. Sərginin təşkilatçısı "Caspian Event Organisers" və onun beynəlxalq tərəfdaşı "Caspian Event Management" şirkətidir.

Qeyd edilib ki, "ADEX" müdafiə sərgisinin iştirakçıları arasında Amerika Birləşmiş Ştatları, Türkiyə, Rusiya, İran, Bolqarıstan, Çin, Fransa, İtaliya, Niderland və digər ölkələrin müdafiə sektorlarının aparıcı şirkətləri var. Macarıstan, Rumıniya və Sinqapurdan olan şirkətlər sərgiyə ilk dəfə qatılıb. Bu il 12 ölkə sərgidə milli stendləri ilə iştirak edir. İtaliya, Macarıstan, Qətər Dövləti və Slovakiya ilk dəfə milli stendlərlə iştirak edirlər. Bir çox ölkələr öz milli ekspozisiyalarının sahələrini böyüdüblər.

Prezident İlham Əliyev Serbiyanın, qardaş Türkiyənin, Birləşmiş Ərəb Əmirliklərinin, İsrailin, Rusiyanın, Çin Xalq Respublikasının, Slovakiyanın və digər ölkələrin bir çox şirkətlərinin pavilyonları ilə tanış olub.

# “Sinəsini qabağa verən gənclər üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur”



Bu sözləri Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev sentyabrın 20-də Xankəndi şəhərində Qarabağ Universitetinin təmirdən sonra açılışında deyib. **O, bildirib:** *“Düz bir il bundan əvvəl qəhrəman Azərbaycan Ordusu dövlət suverenliyini tam bərpa etmişdir. Bir gündən az davam edən antiterror əməliyyatı nəticəsində separatçıların kökü kəsildi, Azərbaycan öz dövlət suverenliyini tam təmin etdi, beynəlxalq hüquq zəfər çaldı və Azərbaycan öz gücünü bir daha göstərdi. Bu günü bizə bəxş edən qəhrəman hərbçilərimizi hər zaman böyük minnətdarlıqla yad edirik. Vətən uğrunda canlarından keçən şəhidlərimizin əziz xatirəsini daim qəlbimizdə saxlayırıq və saxlayacağıq. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Vətən müharibəsi və antiterror əməliyyatı keçirilərkən bizim 3200-dən çox qəhrəman şəhidimiz şəhadət zirvəsinə ucalmışdır. Onların və digər qəhrəman hərbçilərimizin rəşadəti və vətənpərvərliyi Qələbənin əsas amilləridir. Vətən uğrunda İkinci Qarabağ müharibəsində 90 mindən çox gənc azərbaycanlı iştirak etmişdir.*

*Bildiyiniz kimi, 44 gün ərzində şanlı Ordumuz hər gün irəli gedirdi, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi və bildiyimə görə, dünya hərb tarixində buna oxşar hərbi əməliyyatlar olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi nümayəndələrinin özlərinin etirafına görə, Ermənistan ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur. Müharibədən keçmiş ölkə kimi və Ali Baş Komandan kimi müharibənin nəticələrini şərtləndirən amillərə nəzər salaraq, təhlil edərək tam əminliklə deyə bilərəm ki, birinci yerdə, birinci növbədə milli ruh məsələləridir, mənəvi hazırlıqdır. Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat - bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa, heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz”.*

Dövlət başçısı Qarabağ Universitetinin açılışının məhz bu gün keçirilməsinin də əhəmiyyətini qeyd edib: *“Bu açılış istənilən gündə ola bilərdi. Amma hesab etdim ki, 20 sentyabrda olsa, daha düzgün olar. Çünki bu, artıq şanlı tariximizdir. Hesab edirəm ki, Qarabağ Universitetinin yaradılması tarixi hadisədir və keçən ilin noyabrında müvafiq Sərəncam imzalandı. Sonra mən buraya baş çəkdim. Artıq mənim buraya üçüncü gəlişimdir və bütün göstərişlər verildi, Elm və Təhsil Nazirliyi tezliklə bütün lazımi tədbirləri gördü. Demək olar ki, bina yenidən quruldu. Bura bizim tarixi torpağımızdır və əminəm ki, bunu Azərbaycanda bilməyən yoxdur, dünyada da bunu bilirlər ki, Xankəndi şəhəri qədim Azərbaycan yaşayış yeri olubdur, onun adı onu göstərir - Xanın kəndi. Sadəcə olaraq, Ermənistan və erməni alimləri hər zaman olduğu kimi, tarixi təhrif edərək yeni uydurma tarix yaratmağa çalışırdılar və öz lobbi şəbəkələri vasitəsilə müəyyən dərəcədə beynəlxalq ictimaiyyəti də çaşdırmağa nail olmuşdur”.* Çıxışının sonunda prezident İlham Əliyev müəllimləri və tələbələri bir daha təbrik edib, onlara uğurlar arzulayıb.

# Milli Məclis ümidləri doğruldacaq

***Sentyabrın 23-də yeddinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin ilk iclası keçirilib. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev iclasda çıxış edib.***

Yeddinci çağırış Milli Məclisin birinci iclasında Azərbaycan Respublikasının Prezidenti, zati-aliləri cənab İlham Əliyev geniş nitq söyləyib. Prezident Milli Məclisin üzvlərini yeddinci çağırış Milli Məclisin fəaliyyətə başlaması münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb.

***Sonra Milli Məclisin ən qocaman deputatı kimi iclasa sədrlik edən Ziyad Səmədzadə yeddinci çağırış Milli Məclisin ilk iclasını açıq elan edib.***

Milli Məclisin birinci iclasına sədrlik edən Ziyad Səmədzadə açılış nitqində Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Məclisə təşrif buyurmasını, dəyərli fikirlərini bölüşməsini və proqram xarakterli tövsiyələrini verməsini parlamentin tarixinə yazılan ən mühüm hadisələrdən biri kimi dəyərləndirib. O, Ulu Öndər Heydər Əliyevin yolunu layiqincə davam etdirərək Azərbaycanı zirvələrə yüksəltdiyinə, dünyanın sayılıb-seçilən dövlətlərindən birinə çevirdiyinə görə deputatlar adından Prezident İlham Əliyevə təşəkkürünü bildirib və ona gələcək işlərində yeni böyük uğurlar arzulayıb.

***Ziyad Səmədzadə bildirib ki, Azərbaycan Respublikası müstəqil inkişaf yolunda qarşıya çıxan böyük çətinlikləri aradan qaldırıb, dövlət və cəmiyyət həyatının bütün sahələrində heyrətamiz uğurlar qazanıb.*** Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin sərkərdəlik və diplomatik məharəti, Silahlı Qüvvələrimizin qəhrəmanlığı və fədakarlığı sayəsində əzəli torpaqlarımızın 30 illik işğaldan azad olunması milli tariximizdə yeni səhifə açıb. O diqqətə çatdırıb ki, erməni işğalından azad edilmiş torpaqlarda - Qarabağda və Şərqi Zəngəzurda bu gün genişmiqyaslı bərpa və quruculuq işləri həyata keçirilir, məcburi köçkünlərin yurd həsrətinə son qoyulur. Müstəqillik dövründə ilk dəfə olaraq Milli Məclis ölkəmizin bütün ərazisində keçirilən seçkilər yolu ilə formalaşıb.

***Ziyad Səmədzadə Milli Məclisə üzv seçildiklərinə görə deputatları təbrik edib və yeddinci çağırış Milli Məclisə seçilmiş deputatların siyahısını oxuyub.***

Sonra deputat Ziyad Səmədzadə bildirib ki, Milli Məclisin Daxili Nizamnaməsinin müvafiq maddələrinə əsasən, iclasın gündəliyinə 9 məsələ daxildir. Bunlar - Milli Məclisin Hesablayıcı komissiyasının yaradılması, Milli Məclisin Sədrinin və Sədr müavinlərinin seçilməsi, İntizam komissiyasının yaradılması, Milli Məclisin komitə sədrlərinin və Sədr müavinlərinin seçilməsi ilə bağlı məsələlərdir.

İclasın gündəliyi təsdiq olunub.

***Sonra iclasda Milli Məclisin Hesablayıcı komissiyasının yaradılması barədə məsələyə baxılıb. Deputatlar Naqif Həmzəyev, Sevinc Hüseynova, Eldar Quliyev, Soltan Məmmədov, Rövşən Muradov, Səbinə Salmanova, Mixail Zabelin komissiyanın üzvləri seçiliblər.***

Ziyad Səmədzadə diqqətə çatdırıb ki, ikinci məsələ - Milli Məclis Sədrinin seçilməsi məsələsidir. O qeyd edib ki, Milli Məclisin Daxili Nizamnaməsinin 33-cü maddəsinə görə, Milli Məclisin Sədri vəzifəsinə namizədliyi Milli Məclisin deputatları irəli sürə bilərlər. Bildirilib ki, parlament çoxluğunu təşkil edən Yeni Azərbaycan Partiyasının nümayəndələri bu gün yığıncaq keçirərək, Milli Məclisin Sədri vəzifəsinə öz namizədlərini müəyyən ediblər.

Sonra deputat Eldar İbrahimov parlamentin Sədri vəzifəsinə Yeni Azərbaycan Partiyasının namizədini təqdim edib. Millət vəkili çıxışında bildirib ki, bu il sentyabrın 1-də azad və şəffaf şəraitdə keçirilmiş demokratik parlament seçkilərində Yeni Azərbaycan Partiyasının inamlı qələbəsi partiyamızın sədri, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin uzaqgörən daxili



və xarici siyasətinə xalqın göstərdiyi böyük etimadın yeni ifadəsi idi. Ulu Öndər Heydər Əliyevin arzuladığı Azərbaycanı qurmaq naminə möhtərəm Prezidentin həyata keçirdiyi strateji inkişaf xətti ölkəmizi dünyanın ən dinamik inkişaf edən dövlətlərindən birinə və Cənubi Qafqazın liderinə çevirib. O vurğulayıb ki, Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə Qarabağın və Şərqi Zəngəzurun 30 illik işğaldan azad edilməsi xalqımızın tarixi taleyi ilə bağlı olan son dərəcə mühüm bir məsələnin həllini təmin edib.

Deputat Eldar İbrahimov diqqətə çatdırıb ki, Yeni Azərbaycan Partiyasından Milli Məclisə seçilmiş deputatlar parlamentdə çoxluq hüququndan istifadə edərək və partiya Sədrinin tövsiyəsini nəzərə alaraq, Azərbaycan Respublikası Milli Məclisinin Sədri vəzifəsinə deputat Sahibə xanım Qafarovanın namizədliyini irəli sürür.

***İclasda çıxış edən Milli Məclisin deputatı Sahibə Qafarova Milli Məclisin Sədri vəzifəsinə onun namizədliyinin irəli sürülməsinə görə Yeni Azərbaycan Partiyasının Sədri cənab İlham Əliyevə və partiya həmfikirlərinə dərin minnətdarlığını bildirib***. O deyib ki, əgər deputatlar mənə etimad göstərərsə, Milli Məclisin Sədri kimi məsul və şərəfli vəzifəni layiqincə yerinə yetirməyə çalışacağam. Ulu Öndər Heydər Əliyevin başladığı, Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin davam etdirdiyi siyasi xəttin parlament səviyyəsində həyata keçirilməsini təmin etmək mənim fəaliyyətimin əsas məramı olacaqdır.

İclasda deputat Ziyad Səmədzadə bildirib ki, deputat Eldar Quliyev Hesablayıcı komissiyanın sədri, deputat Mixail Zabelin isə komissiyanın katibi seçiliblər.

Sonra Sahibə Əli qızı Qafarova gizli səsvermə nəticəsində Milli Məclisin Sədri vəzifəsinə seçilib.

İclasda çıxış edən Milli Məclisin Sədri Sahibə Qafarova deyib:

***“Hörmətli deputatlar!***

***Xanımlar və cənablar!***

Etimad göstərib məni Azərbaycan Respublikası Milli Məclisinin Sədri seçdiyinizə görə sizə minnətdarlığımı bildirirəm. Bu, mənim üçün həm böyük şərəf, həm də sonsuz məsuliyyətdir və sizi əmin edirəm ki, parlamentin Sədri kimi öhdəmə düşən vəzifələri layiqincə yerinə yetirmək üçün bütün bilik və bacarığımı sərf edəcəyəm.

Ulu Öndər Heydər Əliyevin adı ilə bağlı olan Yeni Azərbaycan Partiyası möhtərəm cənab İlham Əliyevin rəhbərliyi ilə cəmiyyətimizin siyasi inkişafında, dövlətimizin strateji hədəflərinin əldə edilməsində, sosial həmrəyliyin möhkəmləndirilməsində önəmli rol oynayır.

***Hörmətli deputatlar!***

2024-cü ilin parlament seçkiləri ölkəmizin demokratik inkişafı yolunda irəliyə doğru mühüm addım olmuşdur. Seçkilər ölkəmizin siyasi sisteminin yetkinliyini və cəmiyyətimizdə cərəyan edən demokratik proseslərin sabit və davamlı olduğunu göstərmişdir.

Parlament seçkilərinin ən yüksək standartlara uyğun şəkildə azad, ədalətli və şəffaf şəraitdə keçirilməsi xalqımızın iradəsinin dəqiq ifadə olunmasını təmin etmişdir. Xalqdan etimad alan namizədlər parlamentin üzvü mandatını əldə etmişlər.

Beləliklə, Azərbaycan Respublikasının yeddinci çağırış Milli Məclisi fəaliyyətə başlamışdır. Bu münasibətlə mən istərdim deputat həmkarlarımı ürəkdən təbrik edim və onlara gələcək işlərində uğurlar arzulayım!

***Hörmətli xanımlar və cənablar!***

Bildiyiniz kimi, altıncı çağırış Milli Məclisin fəaliyyəti Azərbaycanın həyatında dinamik inkişaf və tarixi qələbələr dövrünə təsadüf etmişdir.

20 il bundan əvvəl möhtərəm cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin iqtisadiyyatında əldə edilmiş inkişaf tempi ötən dövrdə də qorunub saxlanılmışdır. Azərbaycanın iqtisadi, siyasi və hərbi potensialı tarixdə heç vaxt olmadığı qədər artırılmışdır. Biz hər bir çətinliyi aradan qaldırmağa qadir olan və zəngin imkanlarından məharətlə istifadə etməyi bacaran güclü bir dövlətə çevrilmişik. Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə



44 günlük Vətən müharibəsində və birgünlük antiterror əməliyyatlarında əldə edilən möhtəşəm qələbələr dövlətimizin ərazi bütövlüyünün və suverenliyinin bərpasını təmin etmişdir.

Altıncı çağırış Milli Məclisin fəaliyyəti Azərbaycan Respublikasının Prezidenti möhtərəm cənab İlham Əliyevin həyata keçirdiyi daxili və xarici siyasətin parlament ölçüsünü təmin etməyə yönəlmişdir. Milli Məclis öz işini 2020-ci il martın 10-da keçirilmiş ilk iclasında dövlət başçısının irəli sürdüyü tövsiyələr əsasında qurmuşdur. Ötən dövrdə parlamentin fəaliyyətinə dövlət başçısının böyük qayğı və diqqətini biz daim hiss etmişik. Azərbaycan Prezidenti Konstitusiyada təsbit edilmiş qanunvericilik təşəbbüsü hüququna əsaslanaraq müasir standartlara uyğun qanunların hazırlanıb qəbul edilməsi işinə dəyərli töhfələr vermişdir.

Qanunvericilik fəaliyyətinin yekunlarına gəlincə, qeyd etmək istərdim ki, altıncı çağırış Milli Məclisin 175 iclası keçirilmiş, 1202 akt, o cümlədən 1031 qanun və 171 qərar qəbul edilmişdir.

Milli Məclis nəzarət funksiyasını da uğurla yerinə yetirmişdir. Ötən dövrdə Milli Məclisə əhalidən 80 minə qədər təklif, ərizə və şikayət daxil olmuş, 21 mindən çox vətəndaş parlamentdə qəbul edilmişdir.

***Hörmətli xanımlar və cənablar!***

Altıncı çağırış Milli Məclisin beynəlxalq əlaqələrinin inkişafı üçün də lazımi tədbirlər görülmüşdür. Belə ki, deputatların 80-dən çox ölkəyə 1200-dən artıq səfəri həyata keçirilmiş, o cümlədən Milli Məclis Sədrinin 70 rəsmi və işgüzar səfəri olmuşdur.

Bu dövr ərzində Milli Məclis 96 dövlətin və 42 beynəlxalq təşkilatın 3030 nəfər nümayəndəsinin iştirakı ilə 30 beynəlxalq tədbirə evsahibliyi etmişdir.

***Xarici ölkələrin parlamentləri ilə əməkdaşlığa dair 18 yeni sənəd imzalanmışdır.***

Altıncı çağırış Milli Məclisin fəaliyyəti dövründə 21 ölkənin parlamentləri ilə əlaqələr üzrə yeni işçi qrupları yaradılmış və bu qrupların sayı bu gün 103-ə çatmışdır. Hazırda Milli Məclis Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinə, Asiya Parlament Assambleyasına və Türk Dövlətlərinin Parlament Assambleyasına sədrlik edir.

***Hörmətli xanımlar və cənablar!***

Azərbaycan Respublikası günbəgün inkişaf edir və dövlətimizin beynəlxalq aləmdə nüfuzu artır. Odur ki, möhtərəm cənab Prezidentin sabit, qüdrətli və heç kəsdən asılı olmayan dövlət barəsində baxışlarının həyata keçməsinə Milli Məclis bundan sonra da var gücü ilə kömək göstərməlidir. Əminliklə demək olar ki, Milli Məclisin fəaliyyəti dövlət siyasətinin parlament ölçüsünün daha da möhkəmləndirilməsi baxımından önəmli rol oynayacaqdır.

Sonra Milli Məclisin Sədri Sahibə Qafarova bildirib ki, gündəliyin üçüncü məsələsi Milli Məclis Sədrinin birinci müavininin seçilməsidir. Sahibə Qafarova Milli Məclis Sədrinin birinci müavini vəzifəsinə deputat Əli Əhmədovun namizədliyini təklif edib. Açıq səsvermə yolu ilə Əli Cavad oğlu Əhmədov Milli Məclis Sədrinin birinci müavini seçilib.

Spiker Sahibə Qafarova dördüncü, beşinci və altıncı məsələlərin Milli Məclis Sədrinin müavinlərinin seçilməsi olduğunu deyib. Bu vəzifəyə Ziyafət Əsgərovun, Musa Cəfər oğlu Qasımlının və Rafael Baba oğlu Hüseynovun namizədliləri təqdim edilib və səsə qoyularaq qəbul edilib. Parlamentin Sədri Sahibə Qafarova gündəliyin yeddinci məsələsinin Milli Məclisin İntizam Komissiyasının yaradılması olduğunu bildirib. Komissiyanın tərkibi səsə qoyularaq qəbul edilib.

Gündəliyin səkkizinci və doqquzuncu məsələlərinə uyğun olaraq Milli Məclisin komitələrinin sədrləri və onların müavinləri seçilərək təsdiq ediliblər.

İclasın sonunda Milli Məclisin Sədri Sahibə Qafarova əmin olduğunu bildirib ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Milli Məclisin işi ilə bağlı tövsiyələrini birlikdə yerinə yetirmək üçün var gücümüzü sərf edəcəyik. Spiker deputatları bir daha təbrik edib, işlərində uğurlar arzulayıb.

# Nazirlər Kabinetində 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri müzakirə olunub



Sentyabrın 24-də Nazirlər Kabinetində Azərbaycan Respublikasının Baş naziri Əli Əsədovun sədrliyi ilə keçirilmiş hökumətin iclasında 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, 2025-ci il və sonrakı üç il üzrə iqtisadi, sosial inkişaf konsepsiyası və proqnoz göstəriciləri müzakirə olunub.

Nazirlər Kabinetindən verilən məlumata görə, tədbirdə çıxış edən Baş nazir Əli Əsədov ***"Büdcə sistemi haqqında" Qanuna müvafiq olaraq 2025-ci il dövlət və icmal büdcə layihələrinin, həmçinin növbəti üç il üçün icmal büdcənin göstəricilərinin, sosial-iqtisadi inkişaf proqnozlarının Nazirlər Kabinetinə təqdim edildiyini deyib.***

***Cari ilin ötən dövrü ərzində əlverişli xarici mühit və "2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiya"sının uğurlu icrası nəticəsində ölkədə iqtisadi fəallığın davam etməsi, o cümlədən qeyri neft-qaz sektorunun bütün sahələrində müsbət artım templəri müşahidə olunmaqdadır"***, - deyən Baş nazir qeyd edib ki, 8 ayda ümumi daxili məhsul 4,3 faiz artıb, o cümlədən qeyri-neft sektorunda 7,0 faiz artım olub. Qeyri-neft sənayesində isə 7,8 faiz artım qeydə alınıb. Hazırda ölkənin strateji valyuta ehtiyatları 73 milyard dolları ötüb. Bu göstərici cari ilin sonuna gözlənilən ÜDM-in 100 faizi deməkdir və xarici dövlət borcunu 14 dəfəyə yaxın üstələyir. Birbaşa xarici dövlət borcumuzun səviyyəsi aşağıdır. Sentyabrın 1-i tarixinə bu göstərici 5,3 milyard dollar olmaqla ÜDM-in 7,5 faizini təşkil edir. Dünya üzrə ərzaq məhsullarının qiymətlərinin nisbətən azalaraq sabitləşməsi və bunun idxal qiymətlərinə təsiri, valyuta bazarında tarazlığın qorunması və manatın nominal effektiv məzənnəsinin möhkəmlənməsi inflyasiyanın aşağı səviyyədə olmasını şərtləndirib. O cümlədən, tərəfimizdən təsdiq edilmiş müvafiq Tədbirlər Planının icrası anti-inflyasiya tədbirlərinə öz töhfəsini verməkdədir 2024-cü ilin 8 ayında orta illik inflyasiya 1,3 faiz, illik inflyasiya isə 3,5 faiz olub.

Baş nazir qeyd edib ki, ötən dövr ərzində müsbət makro-fiskal göstəricilər, dünya enerji bazarlarında əlverişli qiymət, profisitli tədiyə balansı, dövlət büdcəsinə əlavə gəlir daxilolmaları nəticəsində 2024-cü ilin dövlət büdcəsinə yenidən baxılıb. Nəticədə büdcə gəlirləri 2,2 milyard manat, büdcə xərcləri isə təxminən 3.0 milyard manat artıb.

# "Prezidentin apardığı uğurlu sosial-iqtisadi siyasət əhalinin sosial müdafiəsinin və rifah səviyyəsinin təmin edilməsinə mühüm töhfələr verir"



Bunu Baş nazir Əli Əsədov sentyabrın 24-də Nazirlər Kabinetində keçirilmiş hökumətin iclasında deyib. O, bildirib: ***"2025-ci ildə də büdcənin əsas xərc istiqamətlərindən biri əhalinin sosial müdafiəsi və sosial təminatı olacaq. Şəhid ailələrinə, qazilərə diqqət və qayğı dövlət siyasətinin prioritetləri sırasında qalmağa davam edəcək. Bütövlükdə bütün istiqamətlər üzrə sosialyönümlü xərclər dövlət büdcəsi xərclərinin 43 faizini təşkil edir. 2025-ci ildə əməkhaqqı və sosial ödənişlərdə yeni artımlar 2 milyondan artıq vətəndaşı əhatə edəcək. Müasir-innovativ təhsilin inkişafı və əhalinin keyfiyyətli tibbi xidmətlərə çıxışının yaxşılaşdırılması məqsədləri üçün növbəti ilin dövlət büdcəsində daha böyük vəsait nəzərdə tutulub. Gələn ilin dövlət büdcəsində müdafiə və milli təhlükəsizlik xərcləri ümumi büdcə xərclərinin 17 faizini təşkil edir"***.

İşğaldan azad edilmiş torpaqlarda Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın birbaşa iştirakı və rəhbərliyi ilə geniş bərpa-quruculuq işlərinin sürətlə həyata keçirildiyini vurğulayan Ə.Əsədov bu məqsədlər üçün indiyədək dövlət büdcəsindən 17,5 milyard manata yaxın vəsait ayrıldığını, 2025-ci ildə daha 4 milyard manat vəsaitin ayrılmasının nəzərdə tutulduğunu bildirib.

# "COP29-un əsas təşəbbüslərindən biri İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun yaradılmasıdır"



***"COP29-un fəaliyyət gündəliyində yer alan əsas təşəbbüslərdən biri İqlim Maliyyəsi üzrə Fəaliyyət Fondunun (İMFF) yaradılmasıdır"***.

AZƏRTAC xəbər verir ki, bu sözləri iqtisadiyyat naziri Mikayıl Cabbarov Karbon Qiymətqoyma üzrə Beynəlxalq Forumda çıxışı zamanı deyib.

Nazir qeyd edib ki, iqlim maliyyəsində mövcud olan boşluqların aradan qaldırılmasında bu fond mühüm rol oynaya bilər.

***"Fondun kapitalının əsasən qalıq yanacaq istehsal edən ölkələr, eləcə də neft, qaz və kömür hasilatı ilə məşğul olan şirkətlər tərəfindən maliyyələşdirilməsi nəzərdə tutulur. Fondun əsas məqsədi inkişaf etməkdə olan ölkələrdə, eləcə də kiçik ada ölkələrində iqlim fəaliyyətinə investisiya yatırmaqla yanaşı, qalıq yanacaq ehtiyatlarına malik ölkələrin və bu sektorda fəaliyyət göstərən müəssisələrin yaşıl keçidə olan töhfələrini artırmaqdır. Fondun fəaliyyətə başlaması üçün ilkin olaraq 1 milyard ABŞ dolları məbləğində kapital toplanması və ən azı 10 donor ölkənin fonda qoşulması planlaşdırılır. COP29 çərçivəsində bu məsələ əsas müzakirə mövzularından biri olacaq"***, - deyə nazir əlavə edib.

# "Qarabağda yaşıl enerji zonasının yaradılması istiqamətində aparılan tədbirlərə xüsusi diqqət yetiriləcək"

***"Bərpa olunan enerji mənbələrinin, xüsusən günəş və külək enerjisinin inkişafı, enerji səmərəliliyinin artırılması istiqamətində qarşıdakı dövrdə də işlər davam etdiriləcək. Qarabağda yaşıl enerji zonasının yaradılması istiqamətində aparılan tədbirlərə xüsusi diqqət yetiriləcək"***.

Bunu Baş nazir Əli Əsədov hökumətin iclasında 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, 2025-ci il və sonrakı üç il üzrə iqtisadi, sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinin müzakirəsi zamanı bildirib. Baş nazir qeyd edib ki, işğaldan azad edilmiş ərazilərdə aparılan böyük bərpa-quruculuq işlərinin daha geniş və sürətli şəkildə həyata keçirilməsi üçün əsas şərtlərdən biri həmin ərazilərin çoxsaylı minalardan və partlamamış sursatlardan təmizlənməsidir. Bu baxımdan, ANAMA və tədbirlərə cəlb olunmuş digər qurumlar fəaliyyətlərini daha da genişləndirməli və sürətləndirməlidirlər.

# SİMA məhsulları Özbəkistanda beynəlxalq bazara təqdim edilib

Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyindəki "AzInTelecom" MMC 17-20 sentyabr tarixlərində Özbəkistanda keçirilən "İKT Həftəsi" (ICT Week 2024) tədbirində stendlə çıxış edib.

MMC-dən bildirilib ki, 20-yə yaxın ölkənin təmsil olunduğu tədbirin sərgi hissəsində "AzInTelecom" əməkdaşları tərəfindən şirkətin məhsul və xidmətləri barədə iştirakçılara məlumat verilib, potensial əməkdaşlıq imkanları müzakirə olunub.

Tədbirin ilk günündə "AzInTelecom"un stendini ziyarət edənlər arasında Özbəkistanın rəqəmsal texnologiyalar naziri Şerzod Şermatov da olub. Ziyarət zamanı nazirə "AzInTelecom"un əsas rəqəmsal məhsullarından olan "SİMA İmza" haqqında məlumat verilib. Şerzod Şermatov "SİMA İmza"-nın biometriya funksionallığını maraqla qarşılayıb.




Tədbirin üçüncü günündə "AzInTelecom"un nümayəndə heyəti Özbəkistanda elektron imzalar üzrə məsul qurum olan Yeni Texnologiyalar Mərkəzində olublar. Mərkəzin rəhbərliyi ilə görüşən "AzInTelecom" əməkdaşları Özbəkistanda elektron imza sahəsinin inkişafı üçün "SİMA İmza"nın imkanlarından istifadənin mümkünlüyünü vurğulayıblar. Mərkəzin direktoru Şərifjon Kayumov SİMA-nın imkanlarını yüksək qiymətləndirib və daha geniş müzakirələr üçün Bakıya səfər edə biləcəklərini qeyd edib.

# Azərbaycanın yaşıl enerji güclərinin 70 faizindən çoxu ixrac ediləcək

"Wind Energy Hamburg" konfransı çərçivəsində energetika naziri Pərviz Şahbazov "Enerji keçidi dövründə" panelində Azərbaycanın Avropaya "yaşıl enerji" ixracı siyasətinə dair çıxış edib.

Nazirlikdən bildirilib ki, çıxışda növbəti 6 il ərzində yaradılacaq azı 7 QVt yaşıl enerji güclərinin 70 faizindən çoxunun ixraca yönəldiləcəyi, bu məqsədlə hazırda Avropaya müxtəlif marşrutlarla enerji təchizatının yeni xəritəsinin tərtib edildiyi vurğulanıb.

Avropaya ilkin mərhələdə 4 QVt "yaşıl enerji" tədarük edəcək "Xəzər-Qara dəniz-Avropa", Naxçıvandan 1 QVt bərpa olunan enerjinin ixracı ilə yanaşı, Xəzərdən və Mərkəzi Asiyadan da elektrik enerjisinin Türkiyə və Avropaya ötürülməsi perspektivinə malik "Azərbaycan-Türkiyə-Avropa" yaşıl enerji dəhlizlərinin icra vəziyyəti barədə məlumatlar verilib. Həmçinin yaxın vaxtlarda "Azərbaycan, Qazaxıstan və Özbəkistan arasında yaşıl enerjinin inkişafı və ötürülməsi sahəsində strateji tərəfdaşlıq haqqında Hökumətlərarası Saziş"in imzalanacağı, "Xəzər-Qara dəniz-Avropa" yaşıl enerji dəhlizinin Mərkəzi Asiyaya qoşulması imkanlarının müzakirə edildiyi bildirilib.

Nazır Pərviz Şahbazov deyib: ***"Bu layihələrin unikallığı ondan ibarətdir ki, bu dəhlizlər bərpa olunan enerji sistemində regionları və qitələri əlaqələndirəcək"***.

# Azərbaycanla Çin arasında dəmiryolu ilə tranzit daşımaların həcmi 3 dəfəyə yaxın artıb

Çində səfərdə olan rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev Çin Dövlət Dəmir Yollarının İdarə Heyətinin sədri Liu Cenfan ilə görüşüb.




Görüşdə iki ölkənin dəmir yolları arasında əməkdaşlığın daha da genişləndirilməsi müzakirə edilib.

Həmçinin görüşdə cari ilin yanvar-avqust aylarında Azərbaycan və Çin arasında dəmiryolu ilə tranzit daşımaların həcminin ötən ilin analoji dövrü ilə müqayisədə 275 faiz artdığı qeyd olunub. Liu Cenfan Çinin Orta Dəhlizin cənub marşrutunun inkişafında və Azərbaycan, Qazaxıstan, Gürcüstan dəmir yollarının birgə iştirakı ilə yaradılmış "Middle Corridor Multimodal" şirkətinin işinə qoşulmaqda maraqlı olduğunu bildirib.

# Gömrük orqanlarının xətti ilə büdcə daxilolmaları 5% artıb

Bu ilin yanvar-avqust aylarında Azərbaycanın dövlət büdcəsinə gömrük daxilolmaları 4 milyard 378 milyon 217 min manat təşkil edib. Dövlət Gömrük Komitəsinin (DGK) məlumatına görə, bu, ötən ilin eyni dövrü ilə müqayisədə 5,3% çoxdur.



O cümlədən, son 1 ildə gömrük rüsumları üzrə daxilolmalar 32,1% artaraq 1 milyard 411 milyon 951 min manat, əlavə dəyər vergisi (ƏDV) üzrə daxilolmalar 3,5% azalaraq 2 milyard 809 milyon 397 min manat, aksizlər üzrə daxilolmalar 11,4% azalaraq 130 milyon 843 min manat, yol vergisi üzrə daxilolmalar isə 14% azalaraq 26 milyon 27 min manat olub.

# "Ölkədə "yaşıl maliyyə" ilə bağlı boşluqlar var"

***"Azərbaycan Mərkəzi Bankı (AMB) tənzimləyici olaraq bilir ki, ölkədə "yaşıl maliyyə" ilə bağlı boşluqlar var"***.

Bunu AMB-nin baş direktoru Şahin Mahmudzadə Azərbaycanda Amerika Ticarət Palatasının ("AmCham Azərbaycan") təşkilatçılığı ilə Bakıda keçirilən "Yaşıl maliyyə" konfransında bildirib.

***"Bəzən biz bilmirik ki, "yaşıl səhm" və "yaşıl istiqraz" nədir? Bu baxımdan qanunvericilikdə uyğunlaşdırma aparılır. Bununla bağlı taksanomiya üzərində işləyirik və artıq son mərhələdəyik. Bizim üçün taksanomiya sadə dildə ifadə etsək, bir əlifbadır. Biz dövlət və özəl sektorun gözləntilərini bilmək istəyirik. Ümid edirik ki, bunu ilin sonuna qədər yekunlaşdıracağıq"***, - deyə o qeyd edib.

Bundan başqa, AMB rəsmisi deyib ki, qurum "yaşıl maliyyə" ilə bağlı risk qiymətləndirilməsi tətbiq etmək istəyir: ***"Bu, olmasa, biz bilmərik ki, banklar hazırda nəyə məruz qalırlar və və onlar bu prosesi necə dəyişə bilərlər? Biznes sahəsində, eyni zamanda riskin qiymətləndirilməsi sahəsində hesabatlılıq olmalıdır. İctimaiyyət bilməlidir ki, maliyyə institutları və təşkilatları nə ilə məşğuldur, bu prosesləri necə təşviq edirlər? Bu baxımdan əlavə bir istiqamət də müəyyənləşdirmişik ki, bu da, meqa requlyatordan meqa dəstəkləyiciyə keçid deməkdir. Bu konteksdə biz də maliyyə sektoruna dəstək göstəririk"***.

# “PAŞA Bank” 2024-cü ilin ilk 6 ayının maliyyə nəticələrini açıqlayıb




“2024-cü ilin yanvar-iyun aylarında ölkədə 59.5 milyard manatlıq və ya əvvəlki ilin eyni dövrü ilə müqayisədə 4.3% çox ümumi daxili məhsul istehsal olunmuşdur. İqtisadiyyatın neft-qaz sektorunda əlavə dəyər 0.6%, qeyri neft-qaz sektorunda isə 6.9% artmışdır.” Bu sözləri sentyabrın 25-də keçirilən mətbuat konfransında PAŞA Bankın idarə heyətinin sədri Bəhruz Nağıyev deyib. O, bildirib ki, 2024-cü ildə ÜDM-in real artımının 3.8% olmaqla nominal ifadədə 121.3 milyard manata, o cümlədən qeyri-neft ÜDM-inin 5.5% olmaqla 84.7 milyard manata çatacağı gözlənilir.

Bəhruz Nağıyev həmçinin Bankın 6 ay ərzində əldə etdiyi nailiyyətlər barədə statistik göstəriciləri də nəzərə çatdırıb: ***“2024-cü ilin 6 ayı üzrə cari əməliyyatlar hesabının profisiti 2.6 mlrd. USD və ya ÜDM-in 7.5%-ni təşkil etmişdir. Neft-qaz sektoru üzrə Cari Əməliyyatlar Hesabının profisiti ötən ilin müvafiq dövrünə nəzərən 15.4% daralaraq 6.9 mlrd. USD, qeyri neft-qaz sektoru üzrə Cari Əməliyyatlar Hesabının kəsiri isə 41.1% artaraq 4.3 mlrd. USD məbləğində olmuşdur”.***

2024-cü ilin ilk 6 ayında pərakəndə ticarət dövriyyəsi 0.9 mlrd. AZN və ya 3.6% artaraq 27.3 mlrd. AZN-ə çatmışdır. Kreditlərin depozitlərə nisbəti 2024-cü ilin iyun ayında 66.5%, 2023-cü ilin sonunda isə 62.7% olmuşdur.

Bank 2024-cü ildə də Azərbaycanın maliyyə sektorunda öz mövqeyini qorumağa və fəaliyyətini daha da genişləndirməyə davam edir. 2024-cü ilin ilk 6 ayında bankların kredit portfeli 10% və ya 1.3 mlrd. manat artaraq 25.4 mlrd. manata çatmışdır. Portfelin 55%-ni biznes, 30%-ni istehlak, 15%-ni ipoteka kreditləri təşkil edir.

2024-cü ilin iyul ayının nəticələrinə əsasən PAŞA Bankın aktivlər üzrə bazar payı 17.3%, depozit portfeli üzrə 19.4%, müştərilərə verilən kreditlər üzrə 12.1%, korporativ kreditləşmə üzrə 20.3% təşkil etmişdir. Tədbirdə Bankın İdarə heyətinin üzvü, Baş maliyyə inzibatçısı Murad Süleymanov da çıxış edərək, əsas maliyyə rəqəmləri və həyata keçirilən tədbirlər barəsində məlumat vermişdir.

# Azərbaycanda su ehtiyatları 2020-2050-ci illərdə 20-25 faiz azalacaq

***“Hazırda bütün dünyada, o cümlədən ölkəmizdə qlobal iqlim dəyişikliklərinin neqativ təsirləri getdikcə genişlənməkdədir. Bu təsirlər arid zonalarda yerləşən ölkələrdə daha çox hiss olunmaqdadır ki, Azərbaycan da həmin ölkələr sırasına daxildir”***. Bunu Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin “Regional Su Meliorasiya Xidməti”nin İdarə Heyətinin sədri Zakir Quliyev “Avropa və Mərkəzi Asiya ölkələrinin aqroərzaq sektorunda iqlim tədbirlərinin gücləndirilməsi” mövzusunda keçirilən Regional İqlim Konfransında çıxışı zamanı bildirib.

Onun sözlərinə görə, indiki şəraitdə ekoloji tarazlığın qorunub saxlanılması, təbii ehtiyatlardan səmərəli istifadə edilməsi, suyun, torpağın və atmosferin çirklənmədən mühafizə olunması ümumbəşəri problemə çevrilib.

## Bakıda Azərbaycan-Slovakiya biznes forumu keçirilib

Tədbirdə Azərbaycan iqtisadiyyat nazirinin müavini Anar Axundov və Slovakiya iqtisadiyyat nazirinin müavini Kamil Şaşko çıxış ediblər.

Forumda, həmçinin, Azərbaycan Respublikasının İxracın və İnvestisiyaların Təşviqi Agentliyinin – AZPROMO-nun icraçı



direktorunun müavini Zöhrab Qədirov, Slovakiyanın İnvestisiya və Ticarət Agentliyinin (SARIO) baş direktorunun müavini, beynəlxalq ticarət departamentinin direktoru Egon Zorad iştirak edib.

Qeyd edək ki, 2023-cü ildə Slovakiya Azərbaycana 8 milyon avro dəyərində mal ixrac, 1 milyon avro dəyərində isə idxal edib.

# Bakıda 12-ci Beynəlxalq “Caspian Energy Forum” keçirilib




“Caspian Energy Club” və “Enermus” QSC-nin birgə təşkilatçılığı ilə “Yaşıl dünya naminə həmrəylik ili”, “Əsrin müqaviləsi”nin 30 illiyi və “Caspian Energy” brendinin 25-ci ildönümünə həsr olunmuş tədbirlər çərçivəsində 12-ci Beynəlxalq “Caspian Energy Forum” keçirilib.

Bu barədə “Caspian Energy Club”ın sədri və qrupun baş icraçı direktoru Telman Əliyev məlumat verib.

“Caspian İnvestment Week” çərçivəsində keçirilmiş forum “Green Energy Transition”; “Əsrin müqaviləsi”nin 30 illiyi – iki dövrün arasında dayanıqlı keçidin təmin olunması; Azərbaycanda istehsal olunan yaşıl enerjinin Avropaya dayanıqlı nəqli; Orta Dəhliz üzərində yerləşən ölkələrin yaşıl iqtisadiyyata keçidi; “Yaşıl Qarabağ”; COP29-un çağırışları və Azərbaycanda keçirilməsinin regional əhəmiyyəti; regionda yaşıl layihələrə investisiyaların cəlb edilməsi, dövlət və özəl sektorlarda həyata keçirilən yaşıl layihələrin və sözügedən sektorda əməkdaşlıq kimi mövzuları əhatə edib.

Açılış nitqi ilə çıxış edən Telman Əliyev 1-ci Beynəlxalq “Caspian Gas Industry Forum” və 12-ci Beynəlxalq “Caspian Energy Forum”un rəsmi tərəfdaşları olan Ekologiya və Təbii Sərvətlər Nazirliyi, Energetika Nazirliyi və Fövqəladə Hallar Nazirliyinə foruma göstərdikləri dəstəyə görə dərin minnətdarlığını bildirib və əməkdaşlığın daha da inkişaf edəcəyini vurğulayıb.

# Azərbaycan xarici şirkətlərlə “ağıllı şəhər” və “yaşıl enerji zonası” konsepsiyaları çərçivəsində birgə müəssisələr yaradır

Azərbaycan xarici şirkətlərlə “ağıllı şəhər” və “yaşıl enerji zonası” konsepsiyaları çərçivəsində birgə müəssisələr (BM) yaradır.

Trend xəbər verir ki, bu barədə Azərbaycanın iqtisadiyyat naziri Mikayıl Cabbarov Bakıda karbon emissiyalarının qiymətləndirməsi üzrə Beynəlxalq Forumda bildirib.

O qeyd edib ki, Qarabağda və Şərqi Zəngəzurda hidroenergetika potensialımızı fəal şəkildə inkişaf etdiririk.

***“İşğaldan azad edilmiş torpaqlarımızda “ağıllı şəhər”, “ağıllı kənd” və “yaşıl enerji zonası” konsepsiyaları aktiv şəkildə tətbiq olunur. Bu təşəbbüslər çərçivəsində yaşıllaşdırma və dekarbonizasiya məsələləri ilə məşğul olacaq xarici investisiyalı müəssisələrin yaradılması istiqamətində addımlar atılır. Eyni zamanda, Azərbaycan Qarabağda və Şərqi Zəngəzurda hidroenergetika potensialının fəal inkişafı üçün səylər göstərir”***, - M.Cabbarov bildirib.

Daha sonra, o vurğulayıb ki, Azərbaycan sirkulyar iqtisadiyyata keçidi dəstəkləməyə davam edir.

***“Qlobal iqlim dəyişmələrini nəzərə alaraq, Azərbaycan hökuməti sirkulyar iqtisadiyyata keçidi, təmiz texnologiyaların tətbiqini, bərpa olunan enerji mənbələrinin istifadəsini, eləcə də tullantıların emalı və çirklənmiş ərazilərin təmizlənməsi üzrə layihələri dəstəkləməyə davam edir. Bu proses davam edəcək. ‘Yaşıl’ layihələri həyata keçirən sahibkarlar güzəştli kreditlər, qrantlar və ‘Startap’ sertifikatları şəklində dəstək ala bilərlər ki, bu da ölkədə ekoloji cəhətdən davamlı təşəbbüslərin inkişafını stimullaşdırır”***, - iqtisadiyyat naziri əlavə edib.

# Mərkəzi Bankın baş direktoru bankların nümayəndələri ilə görüşüb



Mərkəzi Bankın baş direktoru Vüsal Xəlilov Azərbaycan Banklar Assosiasiyasına üzv olan bankların nümayəndələri ilə görüşüb.

Görüş zamanı Mərkəzi Bank tərəfindən innovativ maliyyə texnologiyalarının tətbiqi və rəqəmsal bankçılıq ekosisteminin formalaşdırılması istiqamətində həyata keçirilən təşəbbüslərdən bəhs olunub.

Bu istiqamətdə icra olunan layihələrə banklar tərəfindən nəzarət tədbirlərinin gücləndirilməsinin və layihələrin idarə edilməsinin səmərəliliyinin artırılmasının vacibliyi vurğulanıb. Görüşdə həmçinin layihələrin icra müddətlərinin müəyyənləşdirilməsi və prioritetləşdirilməsi üzrə fikir mübadiləsi aparılıb. Görüşün sonunda effektiv fəaliyyətin təmin edilməsi məqsədilə bir sıra tədbirlərin icrası barədə qərar qəbul olunub.

# Yaşıl iqtisadiyyatın stimullaşdırılmasında vergi siyasətinin rolu böyükdür

AZƏRTAC xəbər verir ki, bu sözləri Dövlət Vergi Xidmətinin (DVX) rəisi Orxan Nəzərli Karbon Qiymətqoyma üzrə Beynəlxalq Forumda çıxışı zamanı deyib.

Onun sözlərinə görə, bərpa olunan enerji mənbələrinə sərmayə qoyuluşunun, istehsal sektorunda və ixrac olunan məhsullarda “karbon izi”nin azaldılmasına yönələn siyasətin vergi alətləri vasitəsilə dəstəklənməsi milli vergi sisteminin diqqət mərkəzindədir.

“Ətraf mühitin qorunması üçün bir çox tədbirlər həyata keçirilir və vergi alətləri də bu tədbirlərə fəal dəstək verir. Biz hesab edirik ki, ölkədə dayanıqlı iqtisadi inkişafın və iqlim əsaslı yaşıl iqtisadiyyata keçidin təmin edilməsi yalnız vergiqoyma siyasəti və yaxud bizneslərin üzərinə əlavə vergiqoyma ilə deyil, həm də bərpa olunan enerji mənbələrindən istifadə və yaxud “yaşıl texnologiyalar”dan istifadənin vergilərlə təşviqi hesabına mümkündür. Ölkəmizdə aşağı emissiyalı məhsul və sənayeləri təşviq edən qanunvericilik aktları qəbul edilib. Elektrik və hibrid avtomobillərə, elektrik mühərriki ilə işləyən avtomobillər üçün enerji doldurucularına, habelə əhali qrupuna daxil olan aktiv istehlakçılar tərəfindən bərpa olunan enerji mənbələri hesabına istehsal olunan elektrik enerjisinin müəyyən həddə daxilində elektrik təchizatı şəbəkəsinə ötürülməsindən əldə edilən gəlirlərə münasibətdə tətbiq olunan təşviqləri nümunə göstərmək olar. Yaşıl enerjinin istehsalını həyata keçirənlər üçün iqtisadi stimulların verilməsi gündəmimizin prioritetidir”, - deyə DVX rəisi əlavə edib.

# Şirkətlərin işçilərin əmək müqaviləsini hansı qaydada ləğv edəcəyi açıqlanıb



“İşəgötürən işçini bir ay qabaqcadan kağız daşıyıcıda və ya elektron informasiya sistemi vasitəsilə yazılı ərizəsi ilə xəbərdar etməklə əmək müqaviləsini ləğv edə bilər. Əgər deyilən vaxtda müqaviləyə xitam verilməyibsə, avtomatik olaraq uzadılmış sayılır”.

Bunu Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək qanunvericiliyinə riayət olunmasına dövlət nəzarəti şöbəsinin müdir müavini Mehman Abdullayev deyib.

Onun sözlərinə görə, Əmək Məcəlləsinə edilən dəyişikliklərlə əmək müqaviləsi işçi və işəgötürən arasında e-imza vasitəsilə elektron sənəd formasında bağlanılacaq:

***“Bu müqavilənin dəyişdirilməsinə ona xitam verilməsinin e-qaydada icra olunması, eləcə də əmək müqaviləsinin kollektiv qaydada bağlanmasının ləğvi, müqaviləyə xitam verilməsinin bu barədə əmr, sərəncam və ya qərarın işəgötürən tərəfindən elektron, informasiya sisteminə daxil edilərək e-imza ilə imzalandığı tarixdən qüvvəyə minməsi, e-sənəd formasında bağlanılmış əmək müqaviləsinə xitam verilməsinə dair işəgötürənin əmr, sərəncam və ya qərarının gücləndirilmiş e-imza ilə imzalanaraq işçinin informasiya sistemindəki e-kabinetində yerləşdirilməsi aiddir”***.

# “COP29-un Azərbaycanda keçirilməsi ölkəmizin artan beynəlxalq nüfuzunun bariz nümunəsidir”

“Dünyanın ən əhəmiyyətli və irimiqyaslı beynəlxalq tədbirlərindən olan COP29-un noyabr ayında Azərbaycanda keçirilməsi ölkəmizin artan beynəlxalq nüfuzunun bariz nümunəsidir. Əminəm ki, tədbir Azərbaycana xas yüksək səviyyədə, mükəmməl şəkildə təşkil ediləcək”.

Bunu Baş nazir Əli Əsədov hökumətin iclasında 2025-ci il üzrə dövlət büdcəsinin və icmal büdcənin layihələri, sonrakı üç il üçün icmal büdcənin göstəriciləri, 2025-ci il və sonrakı üç il üzrə iqtisadi, sosial inkişaf konsepsiyası və proqnoz göstəricilərinin müzakirəsi zamanı bildirib.

***“Hökumət üzvlərinin çoxu müvafiq Təşkilat Komitəsinin üzvləridir. Bütün hökumət üzvləri rəhbərlik etdikləri nazirlik və digər qurumların üzərlərinə düşən tapşırıqların icrasına şəxsən cavabdehdirlər. Bu istiqamətdə sıx və əlaqəli şəkildə işləməlidirlər”***, - deyə o əlavə edib.

# “Kitab köşkü” – “AzerGold” QSC-dən daha bir maarifləndirici layihə




“AzerGold” QSC-nin təşəbbüsü və dəstəyi ilə Daşkəsən rayonunun ucqar Quşçu kəndinin mərkəzində kitab köşkü quraşdırılıb.
Cəmiyyətin hasilat fəaliyyəti apardığı bölgədə bu günə qədər icra etdiyi “Kitab sovqatı”, “Uşaq kitab dostu” kimi bir sıra uğurlu maarifləndirici layihələrin davamı olan “Kitab köşkü” ətraf kənd sakinləri, xüsusilə uşaq və yeniyetmələr arasında mütaliə vərdişlərinin formalaşmasına, asudə vaxtın səmərəli təşkilinə və kitabın kütləvi şəkildə təbliğinə dəstək göstərilməsinə xidmət edir.
Günün 24 saatı ərzində kənd sakinlərinin sərbəst şəkildə kitabları əldə etməsinə imkan yaradan “açıq kitabxana” tipli kitab köşkündə dünya klassiklərinin əsərləri, müasir Azərbaycan və dünya ədəbiyyatı inciləri, həmçinin biznes və özünüinkişaf istiqamətləri üzrə nəfis tərtibda dərc edilmiş ən yeni kitablar təqdim olunur. Oxucular seçdikləri kitabı mütaliə etdikdən sonra geri qaytarıb digər kitablardan bəhrələnəcək, bununla yanaşı, paylaşmaq istədikləri nəşri köşkə hədiyyə etməklə digər oxucuların da mütaliə etmələrinə imkan yaradacaqlar.
Köşk rübdə bir dəfə yeni nəşrlərlə yenilənəcək. Qeydiyyat əsasında ən çox kitab mütaliə etmiş oxuculara Cəmiyyət tərəfindən həvəsləndirici hədiyyələr təqdim olunacaq.




# “BMT son illərdə missiyasını yerinə yetirməkdə çətinlik çəkir”



Bunu Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan ABŞ-də BMT Baş Assambleyasının 79-cu sessiyasında çıxışı zamanı deyib.
O bildirib ki, BMT getdikcə daha passiv, hərəkətsiz bir quruma çevrilir.
Ərdoğan söyləyib ki, müxtəlif regionlarda baş verən hadisələr də bunu göstərir.

# “La Gazette du Caucase” Fransanın yeni Nazirlər Kabinetini tənqid edib: Bu, son 15 ilin ən anti-Azərbaycan hökumətidir!

Fransada Baş nazir Mişel Barniyerin rəhbərliyi altında yeni Nazirlər Kabineti elan edilib. Fransanın yeni Nazirlər Kabineti son 15 ilin ən anti-Azərbaycan hökumətidir. Bu barədə Fransanın onlayn-nəşri “La Gazette du Caucase” öz məqaləsində vurğulayıb.
*“İcra Hakimiyyətinin koalisiya razılaşması əsasında qurulduğu Qərb demokratiyalarından fərqli olaraq, Fransada hökumət daha çox siyasi və ya şəxsi üstünlüklərə əsaslanaraq qurulur. Qafqaza gəldikdə, narahatlıq üçün kifayət qədər səbəb var. Əgər əvvəlki hökumətin anti-Azərbaycan mövqeyini dəyişdirəcəyi gözlənilirdisə, indi bizi bundan çox uzağıq”*, - müəlliflər yazırlar.
Belə ki, yeni hökumətin tərkibinə erməni əsilli 2 nazir daxil olub.
*“Əgər onlar əvvəllər müxtəlif növ anti-Azərbaycan kampaniyaları aparmasaydılar və Qarabağ separatçılarını qeyri-şərtsiz dəstəkləməsəydilər, bu, özlüyündə sual doğurmazdı”*, - məqalədə vurğulanır.
Əmək və məşğulluq naziri təyin olunmuş Astrid Panosyan-Buve Azərbaycanın “təcavüzünə” son qoyulmasını tələb edən qətnaməni fəal şəkildə dəstəkləyib, həmçinin Fransanın siyasi nümayəndələrinin Ermənistana etdiyi səfərə rəhbərlik etmişdir. Dövlət xidmətinin yeni naziri Qiyom Kasbaryan da anti-Azərbaycan qətnaməsi imzalayıb. Daxili işlər naziri təyin olunan Bruno Retaylo da diqqət çəkir. O, ultra-muhafizəkar baxışları ilə tanınır və müsəlmanlar ilə ermənilər arasında mədəniyyət müharibəsi ideyasını dəstəkləyir. O, beynəlxalq icmanı Ermənistana kifayət qədər dəstək vermədiyinə görə tənqid edib.
*“Müdafiə naziri Sebastyan Lekornyu və ədliyyə naziri Didye Miqo kimi digər hökumət üzvləri də erməni maraqlarına fəal dəstək olublar. Yeni nazirlərdən əksəriyyəti, o cümlədən Antuana Armana və Ann Jenete 2022-ci ildə Azərbaycana qarşı qətnamə imzalayıb. İstisna olaraq Mədəniyyət naziri vəzifəsinə yenidən təyin olunan Raşida Dati qalır. o, Azərbaycanın mədəni irsi haqqında danışarkən senzura riski ilə üzləşməmək üçün cəsarətli olmalıdır”*, - məqalədə deyilir.


GOUVERNEMENT BARNIER : LA DROITE ISLAMOPHOBE ET ANTI-AZERBAÏDJANAISE PREND LES RÊNES DE L’EXÉCUTIF

23 Septembre 2024 03:40 (UTC+01:00)

L’INFO DE A À Z

AU MOINS 50 MORTS DANS L’EXPLOSION D’UNE MINE DE CHARBON EN IRAN
Lire la suite
22 Septembre 20:54

TRUMP REFUSE L’APPEL DE HARRIS POUR UN DÉBAT EN OCTOBRE
Lire la suite
22 Septembre 20:35

L’ASSEMBLÉE GÉNÉRALE DES NATIONS UNIES RÉUNIT LES DIRIGEANTS DU MONDE ENTIER
Lire la suite
22 Septembre 20:16

LE MINISTRE AZERBAÏDJANAIS DES AFFAIRES ÉTRANGÈRES PART EN VISITE DE TRAVAIL AUX ÉTATS-UNIS
Lire la suite
22 Septembre 13:50

LA FRANCE SE DOTE D’UN NOUVEAU GOUVERNEMENT
Lire la suite
21 Septembre 21:30

LES ÉTATS-UNIS SALUENT LES EFFORTS DE L’AZERBAÏDJAN POUR DÉVELOPPER DES VOIES D’EXPORTATION D’ÉNERGIE VERTE
Lire la suite

# Süni intellekt – lal və karların köməkçisi



Hazırda dünyada 70 milyon insan tamamilə kar, 230 milyon insan isə autizm və ya insult kimi xəstəliklər səbəbindən eşitmə və ya nitq pozuntusu yaşayır. Bundan əlavə, nəzərə almaq lazımdır ki, kar uşaqların 90 faizi normal eşitmə qabiliyyətinə malik valideynlər tərəfindən doğulur. Bu valideynlərin isə yalnız 25 faizi işarət (əl və barmaqlarla hərəkət) dilində danışır. Digərlərinin isə ünsiyyətdə ciddi problemləri olur.
Bundan başqa, eşitmə problemi olan insanların yalnız 2 faizinin ünsiyyət üçün lazım olan texnologiyaya çıxışı var. Çünki bu, ya çox bahadır, ya da onların fərdi ehtiyaclarına uyğunlaşdırıla bilmir. Buna görə də xəstələrin fərdi ehtiyaclarına uyğunlaşdırıla bilən ucuz “ağıllı əlcək” hazırlanıb. Bu əlcəkdən əsas ünsiyyət vasitəsi kimi işarət dilindən istifadə edən eşitmə və ya nitq qüsuru olan insanlar istifadə edə bilər. Əlcəklər istifadəçinin fərdi əl hərəkətlərini ölçən, izləyən və qeyd edən çoxsaylı sensorlarla təchiz olunub. İstifadəçilər, həmçinin əlcəyin “danışacağı” dili (məsələn, ingilis, fransız, ərəb) və səs növünü (məsələn, kişi, qadın, uşaq) seçmək imkanına malikdirlər. Əlcək jestləri bilək qurğusunda yerləşən displeydə görünən mətnə, sonra isə bilək montajında yerləşən mini dinamik vasitəsilə ötürülən nitqə çevirir.

# Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi Ceyhun Məmmədovun həmmüəllif olduğu məqalə beynəlxalq jurnalda yayımlanıb

*Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi Tibbi Xidmət İdarəsinin rəisi, Əməkdar həkim, tibb xidməti general-mayoru Ceyhun Məmmədov və rəis müavini, tibb xidməti polkovnik-leytenantı, dosent İsmayıl Əfəndiyevin həmmüəllif olduqları “Şizofreniya spektri olan xəstələrdə COVID-19-a cavab reaksiyası: hematoloji və iltihablı profil” mövzusunda məqalə “Kliniki Tibb və Biomühəndislik” adlı beynəlxalq jurnalda nəşr olunub.*




Məqalədə şizofreniyanın COVİD-19 səbəbindən ölüm halları üçün yüksək risk faktoru olduğundan, şizofreniya xəstələrində COVİD-19-un gedişatı və nəticələrindən bəhs edilir. Müəlliflərin bu tədqiqatı şizofreniya xəstələrində SARS-CoV-2-yə hematoloji və immunoloji cavabı araşdırmaq məqsədi daşıyır. Məlumatlar şizofreniya xəstəsi olan 69 xəstənin və təsdiqlənmiş COVID-19 diaqnozu olan 332 əqli cəhətdən sağlam şəxsin tibbi qeydlərindən götürülərək araşdırılmışdır. İmmunoloji status hemoqlobin səviyyəsi, ağ qan hüceyrəsi, mütləq neytrofil, mütləq limfosit və trombositlərin sayı ilə qiymətləndirilmişdir. İltihab vəziyyəti neytrofil-limfosit nisbətindən istifadə edilərək dəyərləndirilmişdir. Müəlliflərin əldə etdiyi nəticələr şizofreniya xəstələrində nəzarət qrupları ilə müqayisədə xəstəliyin daha yüngül keçməsini göstərmişdir.
Beləliklə, müəlliflərin əldə etdiyi nəticələr ümumi əhali ilə müqayisədə şizofreniya xəstələrində COVID-19-a fərqli fizioloji reaksiya aşkar etmişdir və bu, psixi xəstəliklərin təbiəti, dərman müalicəsi, immun sisteminin funksionallığı və COVID-19-a həssaslıq arasında mürəkkəb qarşılıqlı əlaqənin olması haqqında bir çox suallar doğurmuşdur.
Qeyd edək ki, “Kliniki Tibb və Biomühəndislik” adlı beynəlxalq jurnal (ISSN: 2737-534X) elmi, beynəlxalq fənlərarası nüfuzlu açıq referens jurnal olub, ciddi şəkildə qabaqcıl biomühəndislik texnologiyalarına uyğun səhiyyə, risk faktorları, profilaktik tibb, klinik praktika ilə bağlı problemlərin həlli üçün əhatə dairəsinə malik olan əsərləri dərc edir.

**Dilarə Zamanova,**
**Mərkəzi Gömrük Hospitalının PR mütəxəssisi**

# Bakı Fond Birjası yeni brend kimliyini təqdim edib

“Əsas dəyərləri dürüstlük, davamlı inkişaf və tərəfdaşlıq olan Bakı Fond Birjasının (BFB) yeni brend kimliyində vizual elementlərlə yanaşı, yeni strategiyanın təşəbbüsləri də öz əksini tapıb”.
Bu sözləri Bakı Fond Birjasının yeni brend kimliyinin təqdimatı ilə bağlı keçirilən mətbuat konfransında BFB-nin İdarə Heyətinin sədri Ruslan Xəlilov deyib. O, yeni brend kimliyinin şirkətin gələcək planları ilə necə uyğunlaşdırıldığını da qeyd edib.
Bildirilib ki, brendin yenilənməsi birjanın bazar iştirakçıları və tərəfdaşları ilə münasibətlərini daha şəffaf və etibarlı şəkildə quraraq, qarşılıqlı əlaqələri yeni bir çərçivəyə salmaq niyyətini özündə birləşdirir. Bu münasibətlər də, öz növbəsində, Bakı Fond Birjasının beynəlxalq miqyasda rəqabət qabiliyyətini artırmaqla yanaşı, yerli bazarda yeni imkanlar açır.
Tədbirdə sözügedən dəyişikliklərin BFB-nin yerli kapital bazarı iştirakçıları arasındakı yerini daha da möhkəmləndirəcəyi vurğulanıb və bu prosesin şirkətə yeni imkanlar təqdim edəcəyi qeyd olunub. Sonda BFB-nin İdarə Heyətinin üzvləri jurnalistlərin suallarını cavablandırıblar.

Bakı Fond Birjası

30 ilə yaxın təcrübəsi ilə ölkənin kapital bazarlarına töhfə verən Bakı Fond Birjasının məqsədlərindən biri də maliyyə bazarları ilə bağlı məlumatları geniş auditoriyaya daha əhatəli və əlçatan şəkildə təqdim etməkdir.

**Mətanət Hüseynova**

# "Bakcell"dən abunəçilərə geniş seçim imkanı verən "Star" tarifi

İnnovasiya və sürət lideri “Bakcell” danışıq dəqiqləri, internet və digər imkanları özündə birləşdirən “Star" tarifini təqdim edir. Abunəçilər 9 fərqli kateqoriyada təklif olunan tarifi seçməklə əlavə internet bonusları da əldə edəcəklər.
"Star” tarifinə qoşulan abunəçilər ölkədaxili zənglər üçün dəqiqələr və internetlə yanaşı, “WhatsApp” və “Telegram” tətbiqlərində yazışmaları ödənişsiz həyata keçirəcəklər. Üstəlik, tarif paketi ardıcıl üç dəfə yeniləndikdən sonra hər növbəti yenilənmə zamanı abunəçilərə əlavə internet bonusları təqdim olunacaq.




Məsələn, "Star 6GB" tarifinə 550 danışıq dəqiqəsi, 6GB internet balansı və “WhatsApp” və “Telegram” tətbiqlərində ödənişsiz mətn yazışmaları daxildir. Bundan əlavə, tarif paketi ardıcıl üç dəfə yeniləndikdən sonra abunəçilərə hər yenilənmə zamanı əlavə “2GB” internet bonus olaraq təqdim olunacaq. “Star 6GB” tarifinə “*600#YES” kodunu yığmaqla asanlıqla keçmək olar. Tarif paketinin dəyəri 14,90 AZN-dir. Cari tarifdən “Star” tarifinə keçid tamamilə ödənişsizdir.
Qeyd edək ki, 9 fərqli kateqoriyada təqdim olunan “Star” tarifi barədə ətraflı məlumatı “Bakcell”in saytından əldə etmək mümkündür.

# “Bakcell”in dəstəyi ilə “Xəzəri qoruyaq!” aksiyası baş tutub

Azərbaycanın ən sürətlisi “Bakcell”in uzun illər tərəfdaşı olduğu “Xəzəri Qoruyaq!” adlı genişmiqyaslı ekoloji aksiya başa çatıb.
“Yaşıl dünya naminə həmrəylik ili”nə həsr olunan və sentyabrın 7-dən 21-dək davam edən builki aksiyanın sonuncu məntəqəsi Novxanı sahilləri olub.
“Xəzəri Qoruyaq!” şüarı ilə keçirilən ekoloji aksiya bütün dünyada qeyd edilən Beynəlxalq Sahilyanı Təmizlik Günü çərçivəsində təşkil edilib. Kampaniyanın əsas məqsədi ölkədə ekoloji durumun




yaxşılaşdırılması, əhalinin bu sahədə maarifləndirilməsi və ətraf mühitə məsuliyyətli yanaşma vərdişlərinin təşviqidir.
“Bakcell” əməkdaşları da aksiyada fəal iştirak edərək sahil təmizləmə işlərinə öz töhfələrini veriblər. Onlar həm tullantıların yığılması, həm də onların çeşidlənərək təkrar emala göndərilməsində yaxından iştirak ediblər.
Ekoloji aksiyalarda iştirak “Bakcell” şirkətinin korporativ sosial məsuliyyət (KSM) strategiyasının əsas istiqamətlərindən biridir. Şirkət ətraf mühitin qorunması, ekoloji maarifləndirmə və davamlılıq mövzularında təşəbbüsləri dəstəkləməyi və bu sahədə fəaliyyətini daha da genişləndirməyi planlaşdırır.

Təsisçi:
Akademik Ziyad SƏMƏDZADƏ
Baş redaktor:
Aytən SƏMƏDZADƏ

ELMİ-REDAKSİYA ŞURASI:
Ziyad Səmədzadə, Aytən Səmədzadə, Qüdrət Kərimov, Elşən Hacızadə, Elşad Səmədzadə, Məhiş Əhmədov, Bəyalı Ataşov, Zahid Məmmədov, Süleyman Qasımov, Ədalət Muradov, Vahid Novruzov, Aydın Hüseynov, Rəsul Balayev, Abbas Əliyev

www.iqtisadiyyat.com

Redaksiyanın ünvanı: Əliyar Əliyev küçəsi, 7
Redaksiya: +99412 566 09 60
Faks: +99412 514 14 27
Mühasibatlıq: +99412 566 63 08

Dərc olunan materiallardakı fikirlər Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir. “İQTİSADİYYAT” qəzetinin kompüter mərkəzində yığılmış və səhifələnmiş, “Azərmedia” MMC mətbəəsində çap edilmişdir. Lisenziya: 022201; İndeks: 0355; Tiraj: 1500